№001 25.12.2014 Qəzet 2014-cü il dekabrın 25-dən çıxır

# Ümid

"იმედი" – დამოუკიდებელი გაზეთი

Müstəqil qəzet

## Yeni iliniz mübarək!



# Əziz həmvətənlər! Hörmətli oxucular!

***Sizi Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibətilə təbrik edirik! Cansağlığı və xoşbəxtlik arzulayırıq!***

*"Yola saldığımız il və gələn il barədə düşünərkən uğurlarımızla fəxr edir, sabahkı günə ümidlə baxırıq. Sizinlə əməkdaşlıq sayəsində bu il hakimiyyətimiz çox böyük uğurlara nail olmuşdur. Avropa İttifaqı ilə assosiativ saziş imzaladıq, təhsil və səhiyyənin əlçatan olması, ixracatın artırılması, daha çox sərmayələrin cəlb edilməsi sahəsində də nailiyyətlər qazandıq. Çalışırıq ki, hər gələn gün ötən gündən yaxşı olsun!"*

Baş nazir İrakli Qaribaşvilinin bir çox beynəlxalq təşkilatların nümayəndələri üçün təşkil edilmiş qəbulda dediklərindən.



## GƏLƏN İLİN DÖVLƏT BÜDCƏSİ TƏSDİQ OLUNUB

**Gürcüstan parlamenti 2015-ci ilin dövlət büdcəsini 82 səs lehinə olmaqla qəbul etmişdir.**

**Büdcə layihəsini Maliyyə naziri Nodar Xaduri təqdim etmişdir. 2015-ci il üçün dövlət büdcəsi 9 milyard 875 milyon lari məbləğində təsdiq olunmuşdur.**

## BÖLGƏLƏRİN İNKİŞAFI HÖKUMƏTİN BAŞLICA VƏZİFƏLƏRİNDƏNDİR

**Bölgələrin inkişaf etdirilməsi ölkə hakimiyyətinin başlıca vəzifəsidir və gələn ildən bölgələrdə həyata keçiriləcək layihələrə daha çox diqqət veriləcək.**

**Gürcüstan hökuməti yaxın gələcəkdə bölgələrin inkişafı konsepsiyasını ictimaiyyətə təqdim edəcək.**

### AVROPA İTTİFAQININ ÖLKƏMİZDƏKİ MİSSİYASININ MANDATI DAHA 2 İL ARTIRILIB



Avropa İttifaqı 2008-ci ilin avqust müharibəsindən sonra ölkəmizdə yerləşdirilmiş missiyasının mandatını daha 2 il artırma qərarına gəlib. Əvvəllər missiyanın mandatının müddəti 1 il artırılırdı. Missiya çərçivəsində ölkəmizdə 200 nəfərdən çox müşahidəçi fəaliyyət göstərir.

### NAZİRLİYİN TÖVSİYƏSİ

Ətraf Mühitin Mühafizəsi və Təbii Ehtiyatlar Nazirliyi əhaliyə müraciətində bildirib ki, ağacları kəsməsinlər və Yeniilqabağı dövrdə dibçəklərdə yetişdirilən yolkaları alsınlar. Nazir Elquca Xokrişvili demişdir: "Yeni il şənliklərini yolkasız təsəvvür etmək çətindir. Buna baxmayaraq, əhaliyə bir daha müraciət edirik ki, "Yolka ağacını kəsməyin" aksiyasına qoşulsunlar".



**Kvemo Kartli bölgəsinə yeni qubernator təyin edilib**



səh.3

**Qış depressiyasından necə qurtulmalı?**



səh.6

**55 yaşın qiymətləndirmə balları**



səh.7

REDAKTOR SÖZÜ

Əlixan YƏHYAOĞLU



## Arzulardan doğan "ÜMİD"

Əziz və hörmətli oxucular!

Yeni il ərəfəsində istək və arzularımızın işığında meydana gəlib işıq üzü görən, həyatda ilk addımlarını cəsarətlə atan "ÜMİD" adlı yeni bir mətbuat orqanının səhifələrini oxucuların üzünə açırıq. Bu münasibətlə "Ümid"ə ümid bəsləyib yaşadacaq hər bir oxucunu, hər bir ziyalını, tələbə-gənclər ordusunu səmimi qəlbdən təbrik edirəm! Və UMID-in də digər sələfləri kimi uğurlu və uzunömürlü olmasını arzulayıram!

"ÜMİD"i ümidləndirən, ona nəfəs, can verən, həyat bəxş edən BOLNİSİ MƏDƏNİYYƏT MƏRKƏZİdir (BMM). Nəzərinizə çatdırım ki, bir neçə gün bundan qabaq rəsmən fəaliyyətə baslayan BMM "Ümid"dən cəmi bir neçə gün böyükdür. Və bu gün işıq üzü görən "Ümid"in ilk sayı ilə Sizin görüşünüzə gəlmişik, əziz və hörmətli oxucular.

BMM-nin rəhbəri Fikrət Məmmədovun təşəbbüsü, mərkəzin yaradıcı əməkdaşlarının böyük dəstəyi ilə BMM bölgə xalqlarının dilindən, dinindən və irqindən aslı olmayaraq Mədəniyyət Mərkəzi hesab olunur. BMM və onun mətbuat orqanı olan "Ümid" qəzeti bölgədə yaşayan xalqların həmrəyliyini bərpa etməyə, xeyirxah işlər həyata keçirməyə çalışacaq, adət-ənənələrini, ədəbiyyat və mədəniyyətlərini inkişaf etdirib yaşanmasına dəstək olacaqdır.

Bolnisinin mərkəzində belə bir Mədəniyyət Mərkəzinin mövcud olması çoxdan arzulansa da, fəaliyyətinə maraq göstərilsə də, laqeyid və biganəlik ucbatından sinəsinə döyüb qabağa çıxanlara maddi və mənəvi dəstək verən tapılmırdı. Təəssüf ki, nəticədə yerli və yuxarı dairələrin məmurları günahlandırılırdı. Nəhayət, qəlbimizin "başısoyuqluq" buzunu sındırıb cari ilin dekabr ayının birinci ongünlüyündə Bolnisinin mərkəzində Mədəniyyət Mərkəzinin yaranmasını reallaşdırdıq. Və bundan bir neçə gün sonra isə Mərkəzin "Ümid" qəzetinin fəaliyyətini rəsmiləşdirdik.

BMM və "Ümid" qəzeti bölgə xalqlarının dostluq və qonşuluq əlaqələrində yaranmış "çatları", umu-küsüləri, soyuq münasibətləri, biganəliyi aradan qaldırmaq, inam və etibarı, mehriban və səmimi əlaqələri bərpa etmək, Avropa standartlarının bərqərar olduğu bir cəmiyyətə inteqrasiya edilməsini, bir cox problemlərin həllini, gənclərin təhsil almasını, hər tərəfli inkişaf etməsini, eyni zamanda, milli mentalitetlərimizin qorunub saxlanmasını, Azərbaycan və gürcü ictimaiyyətinin qarşılıqlı anlaşma və hörmət şəraitində qaynayıb qarışmasını istəyir.

Müstəqil "Ümid" qəzeti də öz işlərini BMM-in nizamnaməsi və ölkə konstitusiyası əsasında quracağına, rəngarəng yazılarla, maraqlı məlumatlarla oxucu zövqünü oxşayacağına çalışacaq. Redaksiya heyəti gənc yazarların, zəngin daxili aləmi ilə seçilən ziyalıların, sənət adamlarının imzalarını "Ümid"in səhifələrində görmək istəyir. Xeyirxah, qayğıkeş insanların, imkanlı iş adamlarının saleh əməllərini oxucularla bölüşəcək.

Ümidvarıq ki, ziyalıların, qələm əhllərinin, dillərindən xeyir-dualar əskik olmayan ağsaqqal-ağbirçəklərin, sevib-sevilmək, yazıb-yaratmaq eşqilə döyünən gənclərin imzaları "Ümid"in səhifələrini bəzəyəcək və onlar üzləşdikləri maraqlı əhvalat və hadisələri bizimlə bölüşəcəklər. Redaksiya öz növbəsində hər bir məqalə və yazı müəlliflərinin movqeyinə hörmətlə yanaşmağı özünə borc bilir. Bizə ünvanlanan yazıların hər birinin dərc olunmasına çalışacağıq.

Yazı və məqalə müəlliflərinin nəzərinə çatdırmaq istəyirəm ki, məqalə və yazılardakı fikir və düşüncələrə görə redaksiya məsuliyyət daşımır. Bəzi anlaşılmazlıqlara, ədavət və uyğunsuzluqlara, qərar və təkliflərə, yazının həcm və genişliyinə görə redaksiya imkan daxilində ixtisar və düzəliş etmək hüququna malikdir.

Əziz və hörmətli oxucular! Bolnisi Mədəniyyət Mərəzi və "Ümid" qəzeti qarşıdan gələn iki böyük bayram-Dünya Azərbaycanlarının Həmrəylik günü və Yeni il ərəfəsində yaranıb və fəaliyyətə başlayıb. Bununla bağlı BMM-in rəhbərliyi və "Ümid"in redaksiya heyəti Azərbaycan, Gürcü və digər xalqları Milli Həmrəylik günü və Yeni il bayramları münasibətilə təbrik edir, zamanın tufanlarına sinə gərən, əsrlərin sınağından üzüağ çıxan, mehriban qonşuluq, səmimi dostluq münasibətilə yaşamağı arzulayır. Azərbaycan və Gürcü xalqına uğur və nailiyyətlərin daha çox, daha möhkəm olmasını arzulayır! Ulu Tanrı hər bir ailəyə səadət, sevinc, açıq səma, firavan həyat eşqi və nurlu gələcək bəxş etsin! Amin!

BMM-in rəhbərliyi və arzulardan doğan "Ümid"in redaksiya heyəti Sizin hər birinizi HƏMRƏY olmağa çağırır!

## İmran Qasımov

*Bolnisi rayon Bələdiyyəsi sədrinin müavini*



İmran Rəşid oğlu Qasımov 1963-cü ildə Gürcüstanın Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olub. 1980-ci ildə Kəpənəkçi orta məktəbini, 1997-ci ildə Moskva Kənd Təsərrüfatı kollecini bitirib. 2014-cü ildə keçirilən yerli özünüidarəetmə seçkilərində deputat seçilib. Səs vermə yolu ilə bu ilin avqust ayından Bolnisi rayon Bələdiyyə sədrinin müavini vəzifəsində işləyir. Ailəlidir. Üç qız, bir oğul atasıdır.

Xasiyyətcə mülayim və istiqanlıdır. İşgüzardır. El qayğısı çəkəndir. Haqq-ədalət carçısıdır. Dostluqda səmimi və etibarlıdır. Vətən və yurdsevərdir.

**İ.Qasımovun dedikləri:** "Bolnisi rayon bələdiyyəsi işə başladığı avqust ayından bu günədək rayonun kəndlərində yolları təmir etdirib, rayon üzrə içməli su probleminin həllinə nail olub. Dövlətin "Kənd proqramı" layihəsi üzrə yerlərdə mədəni və abadlıq işlərini həyata keçirir. Yeni ildən görəcəyimiz işlər barəsində isə danışmaq istəmirəm, çünki əvvəlcədən hər hansı bir şey haqqında danışmağı sevmirəm. Sağlıq olsun, yaşıyarıq , görərik.

Bolnisi Mədəniyyət Mərkəzinin yaranması və fəaliyyətə başlaması, Mərkəzin mətbuat orqanı olan "Ümid" qəzetinin ilk sayının işıq üzü görməsi münasibətilə Sizləri səmimi qəlbdən təbrik edirəm! Bu xeyirxah işinizdə uğur və nailiyyətlər arzulayıram! Allah Sizlərə yar olsun! Amin!"

## Longinoz Həsənov

*Bolnisi rayon icra başçısının müavini*



Longinoz Sədrəddin oğlu Həsənov 1957-ci ildə Gürcüstanın Bolnisi rayonunun Qoçulu kəndində anadan olub.1974-cü ildə Bolnisi gürcü orta məktəbini bitirib. 1974-1976-cı illərdə hərbi xidmətdə olub.1980-ci ildə Tbilisi Ticarət texnikumunu bitirib. 1980-1984-cü illərdə Bolnisi Çörək zavodunda mühasib, 1984-1987-ci illərdə Bolnisi Meyvə-Tərəvəz Tədarükü Məntəqəsində əmtəəçi, 1987-1991-ci illərdə Qoçulu Tingçilik sovxozunda mexanik içləyib.1991-2006-cı illərdə kiçik bizneslə məşğul olub. 2006-cı ildə İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin iqtisadiyyat fakultəsini bitirib. 2013-cü ilin oktyabr ayından Bolnisi rayon İcra Başçısının müavini vəzifəsində çalışır. Ailəlidir. Üç qız, bir oğul atasıdır.

Xasiyyətcə mülayimdir. Xalqla əlaqə saxlamaqda, ünsiyyət qurmaqda çətinlik çəkmir. Özünə nəzarət etməyi, nəzakətli davranmağı gözəl bacarır. Özündə məsuliyyət hiss edir. İşinə düzgün və ədalətlə yanaşmağı sevir.

**L.Həsənovun dedikləri:** "Bolnisi Mədəniyyət Mərkəzini yaradan, "Ümid" qəzetini təsis edən eloğlumuz Fikrət Məmmədovun cəsarətli addım atmağını və xeyirxah iş gördüyünü ürəkdən alqışlayıram. O, Bolnisi azərbaycanlılarının qəlbindəki laqeyidlik buzunu mənəvi odu-alovu ilə əritdi. BMM-in və "Ümid"in qədəmləri mübarək olmasun. İlk Qaranquşların qanadları qüvvətli və dözümlü olmağını,bolnisililərin ümidlərini doğrultmağını arzulayıram! Ümidvaram ki, ölkənin ictimai və mədəni həyatında uğurlu işlər görəcək".



## Nizami Məmmədzadə

*Gürcüstanın Azərbaycanlı Jurnalistlər Birliyinin sədri*

# Təbrik edirəm!

Hörmətli Əlixan müəllim! Yeni nəşr etdiyiniz qəzetin işıq üzü görməsi xəbərini eşidib ürəkdən sevindim. Yeni nəşrin adının "Ümid" olması isə mənə Gürcüstanda Milli Mətbuatımızın inkişafına ümid verən jurnalistlərin gəldiyini bildirir. Hiss edirəm ki, qəzet Gürcüstanda yaşayan azərbaycanlıların ümidini şərəflə doğruldacaq və ana dilimizin saflığını qorumaqda böyük rol oynayacaq. Arzu edirəm ki, "Ümid"in tutduğu ana xətt aydınlığa, şəffaflığa, düzgünlüyə, sərrast fikirlərə, haqsızlığa qarşı dönmədən mübarizəyə əsaslansın. Ümid edirəm ki, başçılıq etdiyiniz qəzetdə məzmunlu və kəsərli məqalələr, dövrün, zamanın əngəllərini qamçılayacaq felyetonlar və tənqidi yazılar oxuyacağıq. Biz, həmçinin qəzetin hər nömrəsində Gürcüstanımızın, eləcə də Azərbaycanımızın inkişafı haqqında, xalqlarımızın tarixi dostluğu ilə bağlı gözəl fikirlərlə rastlaşacaq, milli-mənəvi dəyərlərimizin təbliği və yaşaması, eyni zamanda gənclərimizin təlim-tərbiyəsində, maarifləndirmə işlərinin gücləndirilməsində qələminizin gücünü görəcəyik. Bu geniş yolda "Ümid"in yaradıcı kollektivinə böyük uğurlar diləyirəm!

Sizə geniş oxucu kütləsi arzusu ilə!

## Mirzə Məmmədoğlu

*Gürcüstan Yazıçıları Milli Akademiyasının Azərbaycan bölməsinin rəhbəri, araşdırmaçı-tərcüməçi*



## ÜRƏKDƏN SEVİNİR VƏ ALQIŞLAYIRAM

Yeni il ərəfəsində soydaşlarımızın yaşadıqları rayonlara səfər etdim. Bonisidə də olanda dostum şair Əlxan Yəhyaoğlunun oğlu Fikrət Məmmədov tərəfindən təsis olunan «Mşenelservis» MMC-də baş çəkdim. Burada cəmiyyətin baş drektoru Fikrət Məmmədov ilə, eləcə də köhnə dostum şair İbraximxəlil ilə görüşüb söhbət etdim. Cəmiyyətin gördükləri işlər barəsində, eləcə də qarşıda duran vəziflər barəsində söhbət oldu. Burada şad bir xəbər də eşitdim ki, cəmiyyətin sədri Fikrət Məmmədov Bolnisi rayon qəzetinin nəşrinin bərpası təşəbbüsü ilə çıxış edib. Ona dəstək olanlar ortaya çıxıb. Mən də öz müqabilimdə bu təşəbbüsü bəyəndim və alqışladım. Sonra Bolnisi munisipaliteti sakrebulosunun sədr müavini İmran Qasımov söhbət zamanı bu təşəbbüsü bəyəndiyini, ona dəstək olacağını bildirdi. Gənclik çağlarımda «Sovet Gürcüstanı» ( İndiki «Gürcüstan») qəzetində ştatdankənar müxbir işləyəndə rayonlarda olurdum. O vaxtlar Bolnisi rayon qəzeti olan «Qələbə bayrağı» yüksək səfiyyədə çıxırdı. Burada başda Cəlil Binnətov olmaqla qəzet işini yaxşı bilən kollektiv çalışırdı. Bu rayonda tez-tez olurdum. Şamo Abdullayev, Talıb Nikbin, Rəşid Hüseynov, Hacıxəlil Allahverdiyev və başqaları ilə görüşürdüm. Onlar da rayonla əlaqədar matenrial hazırlamağıma yaxından kömək edirdilər. Rayon qəzetləri arasında Bolnisi, Qardabani rayon qəzetləri xüsusilə fərqlənirdi. Bu da bu qəzetlərdə fəaliyyət göstərən yaradıcı qüvvələrinin gərgin əməyinin, məqsədyönlü işlərinin nəticəsi idi. Bu qəzetlərdə rayonda baş verən hadislər, ədəbi mühit müntəzəm olaraq işıqlanırdı. Artıq uzun fasilədən sonra qəzetin bərpası sevindirici haldır. Yenə də təkrar edirəm. Buna mən də ürəkdən sevinirəm. Qəzetin oxunaqlı, əhatəli olması, eləcə də, işlədiyim Gürcütsan İctimai televiziyasında, bütün mərkəzi mətbuat orqanlarında Bolnisi rayonuna aid yazıları vaxtında tərcümə edərək qəzetin səhifələrində vaxtında dərc olunmasına çalışacağam. Buna səmimi qəldbən söz verirəm. Yaradıcı kollektivi bir daha təbrik edir, onlara bu yeni ildə yeni əhval-ruhiyyə ilə səmərəli fəaliyyət göstərmələrini arzulayıram.

## SOCAR İNAMLA ADDIMLAYIR




Gürcüstanda fəaliyyət göstərən xarici şirkətlər arasında SOCAR mühüm yerlərdən birini tutur. Şirkət ölkəmizə 2006-cı ildə qədəm qoymuş və qısa müddət ərzində gürcüstanlıların rəğbətini qazanmışdır. Bu müddət ərzində şirkət iri tədiyəçi şirkət statusunu sabit saxlayır. Onun Gürcüstanın dövlət büdcəsinə daxil etdiyi məbləğ 1 milyard laridən artıqdır. Bundan əlavə, SOCAR ölkədə mühüm sosial və mədəni layihələr həyata keçirir, gələcək nəsil üçün sağlam həyat tərzinin yaradılmasına layiqli xidmət göstərir. Artıq 2 ildir ki, SOCAR Gürcüstan ərazisindəki dini konvensiyaların obyektlərini pulsuz təbii qazla təmin edir.

SOCAR Gürcüstanda yaşayan 1200-dən artıq azərbaycanlı tələbənin təhsil haqqını maliyyələşdirir. 30 əlaçı tələbə SOCAR-dan əlavə təqaüd alır. Bundan əlavə, şirkət 120 adamın müalicəsini maliyyələşdirmiş, bu məqsəd üçün 350 min ABŞ dolları sərf etmişdir.

Şirkət infrastukturun (məktəblər, xəstəxanalar, yolların bərpası, mini sadionlar) inkişafına da qayğı göstərir. Bu məqsədlə 8 milyondan artıq ABŞ dolları xərclənmişdir. Ulu öndərin adını daşıyan Heydər Əliyev parkında yenidənqurma işləri görüldükdən sonra bura Tbilisinin gözəl guşələrindən birinə çevrilmişdir.

Mədəni-maarif layihələrinə 1.200.000-dən çox ABŞ dolları xərclənmişdir. Mülki cəmiyyət layihələri üçün (mədəniyyət mərkəzləri, beynəlxalq təçkilatlar) ayrılmış məbləğ 830.000 ABŞ dollarından artıqdır.

2010-cu ildə Marneuli şəhərində "Çay evi" maarif mərkəzi açılmış və burada müxtəlif dərnəklər yaradılmışdır.

2009-cu ildən SOCAR Gürcüstan Şahmat Federasiyasının, 2011-ci ildən Futbol Federasiyasının baş sponsoru, 2012-ci ildən isə Gürcüstan Olimpiya Komitəsinin rəsmi partnyorudur. 2014-cü ildə şirkət Gürcüstanda müxtəlif sosial layihələrə 35.000.000 ABŞ dolları ayırmışdır.

Bir sözlə, SOCAR-ın Gürcüstanda həyata keçirdiyi tədbirləri saymaqla qurtarmaz. SOCAR bu istiqamətdə inamla addımlayır. Bu məsul və şərəfli işdə şirkətin rəhbərliyinə,onun çoxsaylı kollektivinə uğurlar arzulayırıq.

**Nəsib Nəsibov**

## Azərbaycan, Gürcüstan və Türkiyə XİN başçılarının növbəti üçtərəfli görüşü Gürcüstanda keçiriləcək



Məlumatda bildirilir ki, Gürcüstan 2015-ci ildə Türkiyə və Azərbaycanla üçtərəfli görüşə ev sahibliyi edəcək. Qərar nazirlərin bu yaxınlarda Qarsda keçirilən görüşündə verilib.



Qeyd edək ki, Qarsda Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu,



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Gürcüstanın xarici işlər naziri Tamar Beruçaşvilinin dördüncü üçtərəfli görüşü keçirilib.

## Avropa İttifaqı Gürcüstana maliyyə yardımını artırır

Avropa İttifaqının Gürcüstan nümayəndəliyindən bildirilir ki, Avropa komissiyası Gürcüstana yeni maliyyə yardımı ayıracaqdır.

Avropa İttifaqının iqtisadiyyat və maliyyə məsələləri üzrə komissarı Pyer Moskovisinin imzaladığı memoranduma əsasən, Gürcüstana 46 milton avro ayrılacaqdır. Gürcüstan bu yardımı gələn il iki tranş şəklində - biri kredit, digəri isə qrant formasında alacaqdır.

"Biz Gürcüstanın Avropa İttifaqına inteqrasiyası və iqtisadi inkişaf sahəsində islahatlara istiqamətləndirilmiş prosesin həyata keçirilməsi cəhdini dəstəkləyirik" - demişdir komissra.

## Təhlükəsizlik agentliyi yaradılacaq



Daxili İşlər Nazirliyindən təhlükəsizlik blokunun ayrılmasından sonra Təhlükəsizlik Agentliyi yaradıla bilər.

Bu barədə jurnalistlərə açıqlamasında baş nazir İrakli Qaribaşvili bildirib.

Onun sözlərinə görə, Gürcüstan üçün ən optimal model işçi qrupu səviyyəsində müəyyən ediləcək: "Hesab edirəm ki, bu gün biz Gürcüstan Daxili İşlər Nazirliyində islahatlar aparılmasını müzakirə edə bilərik, bunun üçün maksimum şəffaf olacaq işçi qrupu yaratmaq lazımdır. Nazirliyin nəzdində olan təhlükəsizlik blokunun ayrıca təhlükəsizlik agentliyi kimi fəaliyyət göstərməsi də mümkündür. Bu agentliyə təhlükəsizlik və polis bölmələri daxil olacaq.

## Kvemo Kartli bölgəsinə yeni qubernator təyin edilib



Gürcüstan hökumətinin qərarı ilə Paata Xizanişvili Bolnisi, Qardabani, Dmanisi, Tetritskaro, Marneuli, Zalqa və Rustavi inzibati-ərazi regionunu əhatə edən Kvemo Kartli bölgəsinin qubernatoru təyin edilib.

P. Xizanişvili Dmanisi rayonunun Qomareti kəndində anadan olub, ailəlidir.

Tiflis Dövlət Universitetinin mühəndis-iqtisadiyyat fakültəsini bitirib, sonra Almaniyada təhsil alıb.

## Assosiasiya sazişi ratifikasiya edildi



Avropa Parlamenti Avropa İttifaqı ilə Gürcüstan arasında imzalanmış assosiasiya sazişi ratifikasiya edildi

Səsvermə zamanı sənədin lehinə 490 nəfər, əleyhinə isə 76 nəfər səs verib.

Ümumiyyətlə, səsvermədə 623 deputat iştirak edib.

İclasda Gürcüstan prezidenti Georgi Marqvelaşvili, xarici işlər naziri Tamar Beruçaşvili, Gürcüstanın Avropa İttifaqındakı nümayəndəsi Natalya Sabanadze, habelə sabiq prezident Mixail Saakşavili iştirak ediblər.

## Bakıda Gürcüstanın xalq artisti Vaxtanq Kikabidzenin konserti keçirilib



Bakıda Heydər Əliyev Mərkəzində Gürcüstanın Xalq Artisti, görkəmli kino aktyoru və müğənni Vaxtanq Kikabidzenin solo konserti keçirilib.

Vaxtanq Kikabidze yaradıcılığının müxtəlif illərinin mahnılarını izləyicilərə onların tarixçələrini danışaraq təqdim edib. Şux zarafatlar, məzəli söhbətlərlə zalda şən ovqat yaradan ifaçının çıxışları alqışlarla qarşılanıb.

V. Kikabidzenin Bakı tamaşaçılarına təqdim etdiyi repertuarda onun məşhur "Mənim illərim - mənim sərvətim", "Mimino" filmindəki mahnıları da olub. Heydər Əliyev Mərkəzinin səhnəsində ikinci dəfə çıxış etdiyini vurğulayan sənətkar bu ilin yanvarında həmin səhnədə təqdim olunan "Vera məhəlləsinin musiqiləri" müziklinin əsas mahnısını yenidən ifa edib.

Canlı əfsanə səhnəni tanınmış gürcü müğənnisi Liza Baqrationi ilə bölüşüb. İlk dəfə Bakıda olan ifaçı buradakı gözəlliyə və xeyirxahlığa valeh olduğunu bildirib. O, tamaşaçılara iki mahnı təqdim edib.

Konsertin sonunda tamaşaçı alqışları ilə bir neçə dəfə səhnəyə qayıdan V.Kikabidze proqramı Azərbaycan xalq mahnısı "Bəri bax"ın da daxil edildiyi "Qafqaz popurisi" ilə sona çatdırıb. O, bakılıları qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edib, sevgi və səadət arzulayib.

## 2014-cü ilin yadda qalan fotolarından biri



# Bu il dünyada 66 jurnalist öldürülüb

Bu il dünyada vəzifələrini icra edərkən öldürülən jurnalistlərin sayı keçən illə müqayisədə azalıb. Eyni zamanda, onların qaçırılmalarının sayı artıb və öldürülmə üsulları daha da qəddarlaşıb. Bu barədə məlumatlar "Sərhədsiz reportyorlar" beynəlxalq hüquq təşkilatının ilik məruzəsində yer alıb.

Başa çatmaqda olan 2014-cü ildə dünya üzrə ümumilikdə 66 jurnalist öldürülüb. Onların sırasına İŞİD tərəfindən xüsusi amansızlıqla qətlə yetirilən amerikalı reportyorlar Ceyms Fouli və Stiven Sotloff da daxildir.



Jurnalistlər üçün ən təhlükəli ölkə artıq ikinci ildir ki, Suriya sayılır. Orada 15 reportyor həlak olub. Daha 7 reportyor Fələstində, 6-sı Ukraynada, 4-ü İraqda və Liviyada qətlə yetirilib. Keçən il isə dünyada 71 jurnalist həyatını itirmişdi.

# Fələstin məsələsi BMT-də səsverməyə qoyulacaq

İordaniya Ərəb ölkələrinin liqasında hazırlanan və 2017-ci ilin sonuna qədər Fələstin torpaqlarındakı İsrail işğalının sona çatmasını istəyən qərar layihəsini BMT Təhlükəsizlik Şurasına rəsmən təqdim edib.



Təqdim edilən layihənin səsverməyə verilməsi üçün 24 saat keçməsi vacibdir. Ancaq bu da layihənin səsverməyə təqdim ediləcəyini anlamına gəlmir. Bu barədə qərar müzakirələrdən sonra açıqlanacaq.

Layihədə 1967-ci ildə Fələstin əraziləri kimi tanına torpaqların İsrail tərəfindən boşaldılması və müstəqil Fələstin dövlətinin tanınması nəzərdə tutulub. Həmçinin burada İrail-Fələstin sülh danışıqlarının təmin edilməsi üçün beynəlxalq konfransın təşkilinin vacibliyi vurğulanır.

# Fransada axmaqlar üçün kənd salındı

Dünyaca məşhur kloun, aktyor, rejissor Vyaçeslav Polunin Paris yaxınlığında "Axmaqlar kəndi" salıb.

Aktyor oxşar layihəni Rusiyada gerçəkləşdirmək istəyib, amma mümkün olmayıb.

Polunin deyib: "Aktyorlar" qrupunun düzgün yaşamaq formasını axtaranda belə bir ideya yarandı – Piter yaxınlığında onlara yaşamağa, yaratmağa bir kənd salmaq. Bu kənddə insanlar gəlib yaradıcılıq prosesində iştirak edəcəkdilər, amma bu arzum elə sözdə qalmışdı".

Poluninin sözlərinə görə, Fransada kəndi salmaq həm iqtisadi, həm də təşkilati cəhətdən qat-qat asan olub.

Xatırladaq ki, Poluninin oxşar layihələri daha öncə də olub. Bundan əvvəl o "Səfehlər Akademiyası"nı təsis etmişdi:



"Axmaq olmaq –xoşbəxt olmaqdır. Axmaqlar hər şeyə rəğmən birbaşa öz xoşbəxtliyinə doğru gedən adamlardır. Onlar bütün lazımsız işləri atıb onlara sevinc gətirən işlərin dalınca gedirlər" - deyə məşhur kloun müsahibəsində açıqlamışdı.

Poluninin 2013-cü ildə 20 illiyi qeyd olunan "Qar şousu" tamaşası ona dünya şöhrəti gətirib. 1980-ci ildən "Litsedei" teatrını yaradıb. Həyat yoldaşı və uşaqları da eyni teatrda çalışır.

# Fransız alimin dünyanı heyrətləndirən layihəsi



Elektrik mühəndisi fransız Jeron Michaud-Lariviere yaratdığı yeni elektrik ağacı layihəsi ilə qısa müddətdə dünya mediasının gündəminə oturdu. Belə ki, onun yaratdığı ağac külək enerjisini elektrikə çevirir. Elektrik ağacın yarpaqları küləyin istiqamətindən asılı olmayaraq dönür və elektrik istehsal etməyə davam edərək elektrik istehsalını daimi hala gətirir. Jeron elektrik ağac yaratmaq fikrinin sakit bir gündə küçədən keçərkən ağac yarpaqlarının uçuşmaya davam etdiyini gördüyü zaman ağlına gəldiyini söylədi.

Elektrik ağacları küləyin sürəti saatda 7 kilometrdən az olduqda belə fəaliyyət göstərərək elektrik istehsal edə bilir. Beləliklə, bu ağaclar il boyu külək turbinləri ilə müqayisədə 2 dəfə çox elektrik verə bilir.

Hər biri bir neçə küçənin elektrik lampalarını işıqlandıra bilən və bir neçə elektrikli avtomobilini enerji ilə yükləmək iqtidarında olan bu ağacların dəyəri 30 min Euro'dur. Elektrik ağacları 2015-ci ildə satışa çıxarılacaq.



# Raul Kastronun Obamadan ilk istəyi

ABŞ və Kuba arasında diplomatik əlaqələrin 53 il sonra yenidən qurulmasının ardından Kuba prezidenti Raul Kastro ilk tələbini səsləndirib.

Teleqraf.com BBC-ə istinadən xəbər verir ki, o ABŞ hökumətindən Kubaya böyük ziyan verən embarqoları dayandırmağı istəyib.

Ancaq ABŞ-da embarqoların aradan qaldırılması layihəsini tək Ağ Ev deyil, ABŞ Konqresi də təsdiq etməlidir.

Qeyd edək ki, dekabrın 16-da ABŞ prezidenti Obama kubalı həmkarı ilə birlikdə iki ölkə arasında əlaqələrin normallaşması üçün bir sıra addımlar atıldığını açıqlayıb.

# Ukrayna ordusuna yardım edən ölkələrin siyahısı

Müharibə başlandığı gündən etibarən Ukrayna ordusuna 13 ölkə kömək edib.

Bu barədə informasiyanı Ukrayna Müdafiə Nazirliyi yayıb.

Məlumatda kömək edən ölkələrin ABŞ, Fransa, Slovakiya, Norveç, Danimarka, Kanada, Polşa, Litva, İsveçrə, Niderland, İspaniya və Latviya olduğu bildirilib. Nazirlik yaxın zamanlarda Avstraliyanın da Ukraynaya yardım edəcəyini açıqlayıb.



2014-cü ilin yadda qalan fotolarından biri

# "Teymurləng bunların yanında heç nədir..."



Azərbaycanın Millət vəkili Siyavuş Novruzov ABŞ-ı qaradərili vətəndaşların soyqırımında ittiham edib. O, qeyd edib ki, ABŞ konqresi tərəfindən 6000 səhifədən artıq çap olunub insanlara verilən işgəncərlər dünyanın hər bir yerində müzakirəyə səbəb olub: "Demokratiya, insan hüquqları söz-fikir azadlığı pərdəsi altında maskalanan, lakin əmələ gəlincə hansı nəticəyə sahib olmasını biz yox, məhz ABŞ konqresinin özü deyir. Təsadüfi deyil ki, ABŞ-ın keçmiş Mərkəzi Kəşfiyyat İdarə rəisi, həm də vitse-prezidenti də etiraf edir ki, terrorun qarşısını almaq üçün işgəncələrə əl atmışıq

O zaman ortaya sual çıxır ki, ərazisinin 20 faizindən çoxunu itirən, eləcə də, 1 milyondan çox qaçqını olan, ərazisində terror hadisələri baş verən ölkədə kimsə bu və ya digər şəkildə araşdırmaq üçün məsuliyyətə cəlb edəndə niyə narahat olursunuz? Okeanın o tayında baş verən hansısa hadisəni araşdırmaq üçün yol qət edirlər, ancaq Azərbaycan öz ərazisində hansısa terrorun qarşısını ala bilməz? Niyə bizə dərs öyrətməyə çalışan Freedom House təşkilatı və digər qurumların səsi çıxmır?

Tarix boyu Teymurləngi işgəncə verən kimi qələmə veriblər. Lakin Teymurləng bunların yanında heç nədir. Hər zaman sonradan məlum olurdu ki, işgəncə verilən insanların əksəriyyəti günahsız olub. Bəs bu kimi hallara kim cavab verəcək? Niyə həmin insanlar məsuliyyətə cəlb olunmur? Budur onların demokratiyası?

Bilirsiniz ki, adətən, Amerikada Milad bayramında hind quşunun soyqırımı gedir. İndi isə vəziyyət tamamilə dəyişib və qaradərililərin soyqırımına başlayıblar. Gün ərzində təxminən 80-nə yaxın insan qətlə yetirilir".



**Zəlimxan YAQUB**

VƏTƏN

Bir ömür bəs etməz səni duymağa,
Yüz ömür, min ömür az olar, Vətən.
Yenə baş əyərik gözəlliyinə,
Yenə gül açılar, yaz olar, Vətən.

Hər gün can atıram sənə çatmağa,
Hələ uzaqdayam, həsrətdəyəm mən.
Adını çəkməyə dilim də gəlmir,
Bu adı batmışda, qürbətdəyəm mən.

Nə var bu dünyada səndən vəfalı,
Səndən nə şirindi, şirin, ay Vətən.
Gözlərim həmişə qulluğundadır,
Gözümün üstədir yerin, ay Vətən.

Sənin qüdrətindən mayalanıbdı
Dözümüm, inadım, səbrim, ay
Vətən.
Nəyimə lazımdı yad ellər mənim,
Qoynunda qazılsın qəbrim, ay Vətən.

Sən rəngi solmayan, ətri getməyən,
Gülü saralmayan çəmənsən, Vətən.
Füzuli sevdiyi, Sabir sevdiyi,
Vurğun vəsf etdiyi Vətənsən, Vətən!



**Nəriman HƏSƏNZADƏ**

Seyid Nigariyə

Amasya – dağlar qoynunda,
dağlar bulaqlar qoynunda.
Söz – məni saxlar qoynunda,
məndən söz yadigar qalsa.

Tarix, səni varaqlaram,
nə var, yadımda saxlaram.
Qələm ağlar, mən ağlaram,
sinəmdə mövzular qalsa.

Uçub tökülsə saraylar
fəğan eylər illər, aylar
Ondan orda – iki qatar,
bir qapı, dörd divar qalsa.

Arxamdadı dağım-daşım,
istərəm qaynayım-daşım.
Yanımda bir yol yoldaşım,
Seyid Həmzə Nigar qalsa.

Yaş ötüb, sinədəftərəm,
keçmə, keçilməz çəpərəm.
Şair, dilindən öpərəm,
yazdığım misralar qalsa.

**Azər MUSAOĞLU**



YORĞUNLUĞUN FOTOŞƏKLİ

avtobusların sarı rəngini örtmüş toz,
vitrinlərdə manekenlərin duruşundakı hərəkətsizlik,
qoca dilənçinin qarşısındakı konserv qutusundakı boşluq
və qəssab dükanının kölgəsində yatan itin yuxusu
yorğunluğun fotoşəklidir.

SƏSSİZLİYİN FOTOŞƏKLİ

məscidlərə buraxılmayıb
qapıların ağzında sahiblərini gözləyən
ayaqqabıların duruşundakı yorğunluq,
kilsə divarlarındakı
freskaların rənglərindəki solğunluq,
səs-küylə oynayan uşaqların günorta yuxusu,
soyuducunun dincəlmək üçün susmasındakı anilik,
qəbiristanlıqlarda başdaşlarındakı insan portretlərinin
baxışlarındakı fanilik və
fəzadan çəkilmiş Yer kürəsinin görünüşündəki
nəhənglik
səssizliyin fotoşəklidir.

FANİLİYİN FOTOŞƏKLİ

hər gün qarşılaşdığımız reklam lövhələrindəki
insan şəkillərinin nəhəng təbəssümlərindəki sünilik,
yolların kənarındakı çinarların
budanmış budaqlarının dairəvi şikəstliyi,
asfalt üzərinə çəkilmiş piyada keçidlərin
sürtülmüş yorğunluğu və
dayanacaqdakı qulağı qulaqcıqlı qızın
duruşunun tənhalığı
faniliyin fotoşəklidir.

**Cəfər COŞQUN**



1.
Sən yoxsan,
Həyat gözlərimdə intihar məşqləri edir;
Hər gün özünü göz yaşlarıma atıb boğulmaq
istəyir.
Sən yoxsan,
Üzümdə sevinc qəzaya düşüb...
Ürəyim bütün sakinləri tərəfindən tərk edilmiş,
Xaraba qalmış bir şəhər...
Darıxır, sən tərəfdən darıxılmaq istəyir...

2
Sən yoxsan,
Hər gün səni soruşuram gecələrdən,
Xatirələr- daha olmur bu yerlərin qonağı-
deyirlər,
Yolların gözü yol çəkir, -daha öpə bilmirik
ayağını- deyirlər,
Həsrət kasibdir hamımızın dodağını- deyirlər,
Buna görə qan iyi gəlir küçələrdən...

3
Sən yoxsan,
Amma sanki səndən hər kəsdə bir az var,
Sanki səndən hər yerdə bir iz var.
Səni hər kəsdən, hər yerdən parça-parça yığıram,
Mən səni bütöv istəyirəm,
Darıxıram, darıxılmaq istəyirəm...

**Vüqar VƏKİLOĞLU**



**Gəl**

Yad nəzərlərində dəyərsiz olsan,
özünə sən mənim gözlərimlə bax.
Gülüb keç ömrünün qaranlığına
mən odam, işıqlı sözlərimlə bax.

Soyuq baxışlardan inciyəndə gəl!
sən istə, gözlərim könlünü alsın.
Gəl, sığın sevgimə, soyuqdu təklik
yadların istisi yadlara qalsın.

Gizli duyğuların varsa, gizləmə,
nifrəti sevginin yerindən çıxar.
Həris gülüşlərdən qayğı gözləmə,
səni qəm yükünlə gözləyənin var.

**Oyuncaq**

Səni güldürürəm, zarafatımla
gülərkən necə də məsumanəsən
Sevirəm həyatı sevirəm artıq
yaxşı ki dünyaya sən də gəlmisən.

Uşaqtək əl açdım Allaha, səni
atdı qollarıma oyunçaq kimi
Sınandım həyatın əzablarıyla
küsdüm Allahımdan – aldı kön-
lümü.

Oyunçaq deyilsən xeyr, canlısan.
Bəlkə sən uşaqsan mənəm oyunçaq.
Nə qədər istəsən oyna əlindən
düşürsən ürəyim sınacaq ancaq.

**Avtandil CAKADZE**



**BİR SAHİLƏ ÇIXAR MƏNİ**

Şeirim mənim, sənə deyil,
Kimə açım yrəyimi?
Kədərimə ortaq olan
Kimsə varmı sənin kimi.

Sən qəlbimin döyüntüsü,
Sevincisən, kədərisən.
Gah liratək həzin səsli,
Gah xəncərtək kəsərlisən.

Sən dənizsən, mən sinəndə
Andırıram çiləkəni.
Rəhmin gəlsin mənə, şeirim.
Bir sahilə çıxar məni.

**KİMƏ LAZIM MÜHARİBƏ**

"Xotyat li russkie voynı"
Yevgeni Yevtuşenko
Söylə görüm, kimə lazım bu müharibə?!
Qoy lənətə gəlsin onu düşünən!

Söylə, kimə lazım bu müharibə?...
Ancaq vətənimə göz dikən olsa,
Yəqin bil ki, sən,
Qılıncı əlimdən ala bilməzsən!

Bir an dayanmayın! Qisas alaq biz!
Söylə, kimə lazım bu müharibə?!
Onu arzulayan məhv olsun gərək!
Vətən haraylasa, gəlin, a dostlar
Azadlıq uğrunda əl-ələ verək!

Söylə, kimə lazım bu müharibə?!
Onu arzulayan gəlsin lənətə!
Ancaq ana torpaq çağırsa bizi,
Qılıncı çıxarın, ehey,gürcülər!
Birlikdə son qoyaq dərdə, möhnətə!

Tərcümə edən:
Nəsib Ehramçaylı

# Əsl mədəniyyət yaşadığın yerə hörmətdən başlayır

**(yazı ixtisarla verilir)**

Cəmiyyəti daha çox narahat edən məsələlərdən biri küçələrdə, parklarda vətəndaşlarımız əllərindəki zibilləri şəhərdə addımbaşı qoyulan zibil yeşiklərinə deyil, hara gəldi atmalarıdır.

Bütün natəmizlik şəraitini, daha doğrusu, bu şəraitin "yaradıcılarının" qarşısını almaq məqsədilə inzibati cəza tətbiq olunsa daha yaxşı olar.

Bölgələrdə cəmiyyətin ən çox qarşılaşdığı məsəllərdən



biri də yaşadığımız yerin zibilliklərdən qorunması, zibilliklərdə olan zibillərin vaxtı-vaxtında təmizlənməməsi, ən əsası da zibilləri zibil yeşiklərinə atmayan insanlardır.

Belə halların qarşısını almaq üçün isə cəza sistemi tördilən əmələ müvafiq olmalıdır. Hər bir kəs daşıdığı özünəməxsus əxlaqi məsuliyyətdən əlavə, hüquqi məsuliyyət də daşımalıdır.

Cəmiyyəti daha çox narahat edən məsələlərdən biri də küçələrdə, parklarda gəzən vətəndaşlarımız əllərindəki zibilləri şəhərdə addımbaşı qoyulan zibil yeşiklərinə deyil, hara gəldi atmalarıdır. Bu da onların hansı "mədəniyyətin" sahibi olduqlarını göstərir. Amma cəmiyyətin hər bir üzvünün əsl mədəniyyəti onun yaşadığı yerə qoyduğu hörmətdən başlayır. Bir insan gözəl musiqi zövqünə, yaxşı sərgi izləmək xüsusiyyətinə, kitab oxumaq və digər bu kimi qabiliyyətlərə sahib olmadan öncə, yaşadığı şəhərin, küçənin təmizliyinə xüsusi həssaslıqla yanaşmağı bacarmalıdır. Yaşadığı yerə hörmət edən insanda digər xoş əməllərini tamamladıqda mədəni insan demək olar. Təəssüflər olsun ki, bizim cəmiyyət bu günə qədər öyrənə bilməyib ki, təkcə ayrı-ayrı fərdlərin öz evlərində qoruduqları təmizlik onların təmizkar olması demək deyil.

Təmizlik ümumi məfhumdur. Bu, təkcə evimizə məxsus olan anlayış deyil. Bu gün küçələrdə təmizlik qaydalarına riayət etməyən saysız-hesabsız vətəndaşlara rast gəlmək mümkündür. Hətta, iş yerlərində də, təmizliyi gözləmək vacib amillərdəndir.

Gələk zibilliklərin vaxtı vaxtında təmizlənməsi məsələsinə. Mən belə düşünürəm ki, əgər zibilxanalarda olan zibil yeşikləri vaxtında daşınarsa, insanlar zibillərini həmin qutulara atarlar.Gəlib həmin qutunu dolu görəndə insan məcbur olub zibilini zibil yeşiyinə yox, onun ətrafına atmaq məcburiyyətində olur. Zibilini yeşiyə yox, onun ətrafına atmaq doğru əməl deyil. Amma dayanacaqda olan insanlar zibillərini həmin qutulara yox, elə dayanacağın içinə atırlar.Bəzən olur ki, ailələr evlərində yığılan zibili zibilxanaya atmaq əvəzinə, balkondan birbaşa həyətə atırlar. Təbii ki, bu mədəniyyəti müşahidə edən övlad mütləqdir ki, bu cür istiqamətdə tərbiyə olunacaq.

Yəqin çoxları avtobusda olarkən aşağıda siqaret çəkən və sürücü yerinə əyləşən kimi damağındakı siqareti birbaşa yerə tullayıb qaçaraq avtobusa minən kişilərlə rastlaşıb. Zibilqabı düz qarşılarında dayansa belə, bu insanlar siqaret kötüyünü mütləq yerə atmalıdırlar. Yəqin ki, bu tip insanlar evlərində siqareti döşəməyə atmırlar.Hətta, maşınla yol gedərkən bir də görürsən ki, qabaqda gedən maşından atılan su butulkası düz sənin üstünə gəlir. Və yaxud da, yolda qabaqda gedən maşından alma cecəyi düz sənin maşının ön şüşəsinə dəyir. Allaha şükür edirsən ki, yaxşı ki, o alma cecəyi idi.

Yaşadığımız ətraf mühiti elə öz cəmiyyətimiz hər gün həddən artıq çirkləndirir.Baxmayaraq ki, hər gün səhər tezdən müxtəlif rayonların mənzil istismar sahələrinin süpürgəçiləri tərəfindən küçələr, məhəllələr, yollar təmizlənir. Lakin sakinlər bu təmizliyi qoruyub saxlamırlar. Hamı öz yediyindən artıq qalanını yerə tullayır. Bəlkə də belə fikirləşirlər ki, onların da işi olsun, biz zibilləyək ki, onlar da təmizləsin.Fikirləşmirlər ki, zibillədiyimiz ətrafın havasını özümüz uduruq və bu şəraitdə özümüz yaşayırıq.

Bütün bu natəmizlik şəraitini, daha doğrusu, bu şəraitin "yaradıcılarının" qarşısını almaq məqsədilə inzibati cəza tətbiq olunsa daha yaxşı olar. Məişət tullantılarının tutumlarından kənar yerə atılması, həmin yerlərdə saxlanmasına görə fiziki şəxslər, vəzifəli şəxslər, hüquqi şəxslər barədə müəyyən miqdarda cərimə tətbiq ediləcək. Görəsən, doğrudan da sözügedən cərimələrin zibili yerə tullayanların qarşısını almağa gücü yetəcəkmi?Düşünürəm ki, bu məsələdə cərimələrlə yanaşı, mədəni tərbiyə də daha vacib məsələdir.Bu istiqamətdə cəmiyyətdə maaarifləndirmə işləri aparılmalıdır.Əsasən bu sahədə maaarifləndirici layihələr hazırlanıb ictimaiyyətə təqdim olunmalıdır.

**Orxan Vahidoğlu**

# Qış depressiyasından necə qurtulmalı?



Artıq qış fəslindəyik. Hər fəslin özünəməxsus gözəllikləri olsa da, mənfi xüsusiyyətləri də qaçınılmazdır. Soyuq hava şəraiti insanları çöldəki mühitdən təcrit etdiyi üçün evə qapanmalar, gün işığından məhrum olmalar enerjili, gəzməyə meyilli olan gənc nəsildə depressiya, passivlik yaradır.

Bu mövsümdə "soyuğa adaptasiyası" olma mərhələsi onlarda yorğunluğa və ruh düşkünlüyünə səbəb ola bilir. "Qış depressiyası" adlandırılan bu neqativ hal günəş şüasının azaldığı vaxtlarda daha çox rast gəlinir. Təsadüfi deyil ki, alimlər də öz araşdırmalarında qış fəslinin depressiyalar mövsümü olduğunu sübut edib. Bəs qış depressiyasının əsiri olmamaq üçün gənclər nə etməlidirlər? Bu problemlə mübarizə aparmaq mümkündürmü?

Fəsillərin dəyişməsi bir çox insanda, xüsusilə də gənc nəsildə depressiyaya səbəb olur. Əvvəlcədən müəyyən qədər problemlər varsa, fəsil dəyişəndə, əsasən də qış fəslində bu, özünü daha çox biruzə verir. Havanın tutqun olması insanlarda ruhi yorğunluğa səbəb olur. Evdən çölə çıxmaq istəmir, daim yatmaq istəyir. Baş və bədən ağrıları çoxalır. Enerji azlığı, yorğunluq, halsızlıq ruhun yorğunluğunun sübutudur. Belə insanlar səbirsiz və əsəbi olurlar. Qış depressiyasının əsas əlamətləri günün çox hissəsində bədbin ruh halının hakim olması, əvvəllər zövq alınan bir çox şeylərin öz marağını itirməsi, enerji azlığı və tez yorulma, fikrin dağınıq olması, diqqəti toplaya bilməmək, özündən narazı olmaq və hər şeydən özünü günahlandırma, yuxu ehtiyacının artması və yuxu saatlarının çoxalması ilə müşahidə olunur. Qış depressiyasından qurtulmaq üçün gənclərə açıq havada tez-tez gəzmək və yüngül idmanla məşğul olmaq məsləhətdir. Günəş işığı depressiyadan qurtulmaqda önəmli rol oynayır. Çünki, günəş işığı "seratonin" və "noradrenalin" adlanan "xoşbəxtlik hormonları" nın ifraz olunmasına təsir göstərir. Daim yuxusu gələn gənclər bu əhval-ruhiyyədən yaxa qurtarmaq istəyirsə, şüşə arxasından da olsa özünü günə verməlidir. Bundan əlavə sistemli yuxu rejimi də depressiyadan çıxmağa kömək edir. Çünki, yuxu bədən və beyində hüceyrə yenilənməsini həyata keçirən ən önəmli zaman dilimidir. Bunun üçün də mütəxəssislər hər axşam eyni saatda yatmağı tövsiyə edirlər. Düzgün yuxu rejimi depressiya riskini azaldır. Qış fəslində belə depressiv hallardan xilas olmaq üçün ailə və dostların dəstəyi də önəmlidir. Gənclər nə qədər fəal olsalar, depressiyadan bir o qədər də tez qurtularlar.



*Sevinc ELSEVƏR*

# Kişilərə mentalitet zülmü

Nə qədər ki, oğlum dünyaya gəlməmişdi, hələ dünyada heç bir kişini canımdan artıq sevməmişdim, elə zənn edirdim, onlara yer üzünün cənnəti, biz qadınlara isə cəhənnəm hissəsi düşüb.

Hərdən oğlumu da özümlə məktəbə aparıram. Boynuma alıram ki, uşağı özümə çox bağlamışam. Başqa qadınlar mənə irad tutur: "Belə oğlan böyütməzlər. Qucağından düşmür. Burax, qoy yıxılsın, dizi qanasın, bərkisin..." Bu sözlərə acığım tutur, oğlumu daha möhkəm qucaqlayıram.

Atası onu həmişə "mənim qəhrəman oğlum" deyə əzizləyir. "Mənim oğlum qəhrəman-filan olmağa borclu deyil. O, qəhrəman olmasa da onu həmişə sevəcəyəm" - deyirəm. Sonra hardansa sözlərini oxuduğum qədim bir ingilis mahnısı düşür yadıma, kövrəlirəm:

- Gedirsənmi cəbhəyə sən, Bili boy, Bili boy?
Gedirsənmi cəbhəyə sən, ey qoçaq Bili?
- Uzaq eldə hərbdə ölmək
Bizim üçün borcdur, demək?
Mən cavanam, qəlbi nuram,
Mən anamdan ayrılmaram!

Qadınların kişilərlə bərabərhüquqlu olması üçün çalışan, yazan adamlardan biri mənəm. Bu mövzuda bir roman yazmışam ən azı. Uşaqlığımdan bəri cinsi ayrı-seçkiliyə məruz qalmışam. Anam məni qız doğduğuna görə yeganə sevinci qardaşlarım sünnət olunanda hiss eləmişəm. Evdə dəllək qardaşlarımı çığırdanda mən bağın ən uzaq ağacının dibində oturub ağlayırdım, hər şeyin tez və yaxşı qurtarması üçün Allaha yalvarırdım.

Bərabərlik yaxşı şeydi, amma bir çox mövzularda qadınlarımız "kişi üstünlüyünün" əla dadını çıxara bilsələr də, bunu dilə gətirmirlər. Məsələn, əgər elektrik borcu yığılıb 100 manatı ötübsə, (paltaryuyan, tozsoran, qabyuyan, ətçəkən maşının və bütün günü televizorda gic-gic seriallara baxmağın hesabına) işıq pulunu yığmağa gələn adam da kişidirsə (çox vaxt belə olur), qadın məmnuniyyətlə, evin kişisini qabağa verir. Bilə-bilə ki, kişinin cibində 5 manat da yoxdur. Amma başqa vaxt öz birinciliyini güzəştə getmək qadına ağır gəlir.

Bir dəfə mağazalardan birində paltar alırdım. Satıcı hicablı qadın idi. Kifayət qədər yaxşı örtünmüşdü. Bir teli də görünmürdü. Mən paltarı geyindim, dedim ki, ərim bayırdadı, o da paltara baxmalıdı. Bunu deyəndə qadın həyəcanla yekə qara bir şala cumdu. Qadının bu hərəkətini özümə və ərimə qarşı təhqir hesab elədim. O, mənim ərimi necə bir adam kimi təsəvvür eləmişdi? Öz qadını yanında ola-ola başqa bir qadına – özü də hicablı qadına "pis niyyətlə" baxacaq biri kimimi?

Gözəllik salonlarının qarşısında ərim məni gözləyəndə hazır olub-olmadığımı soruşmaqdan çəkinir. Çünki bir dəfə başını salondan içəri salmamış qara-qışqırıqçı bir qadının hücumuna məruz qalmışdı. Biz deyilikmi az qala dünyanın bütün kişilərinin şorgöz olduğunu düşünən? Bu həqiqətənmi belədir?

Anam məktəbli olanda məni "önyarğılı" öyrədirdi. Bütün oğlanlar aldadır, bütün kişilər xəyanətkardır. Onların niyyəti ancaq qızları yoldan çıxarıb atmaqdı. Azərbaycanda hansı oğlan bir qıza yaxınlaşıb desə ki, sadəcə səni tanımaq istəyirəm, kinoya gedək, çay içək, bir yerdə gəzməyə çıxaq, ən yaxşı halda təhqir olunub qovulur. Mütləq ilk kəlmədə "səni alacam" deyə söz verməli, dünya dağılsa da sözündən dönməməlidir. Mental dəyərlər oğlanları yalan danışmağa vadar edir.

İç geyimində - maykada balkona çıxan kişiyə məişət pozğunu kimi baxırlar. Şortik geyinən, sırğa taxan kişilərə cürbəcür adlar qoşurlar.

Bizim cəmiyyətdə atalar oğlan uşaqlarının doğulmasını ona görə arzulayırlar ki, xanımlarını, qızlarını evdə rahat qoyub səfərə çıxsınlar, işə getsinlər. Evin zibilini atsınlar, dükana - siqaret, araq almağa göndərsinlər.

Rayonlardan birində yaşayırdıq. Ailə dostlarımızdan biri arvad-uşağıyla bizə qonaq gəldi. Qadına nəsə lazım olanda evimizə yaxın mağazaya gedirdi. Mən hamiləydim deyə onunla gedə bilmirdim. Həyat yoldaşımın da getməsi düzgün çıxmırdı. Qadın küçəyə çıxan kimi kişi 10 yaşlı oğluna göz eləyirdi: "Get ananın dalınca. Ananı tək buraxma!" Hər dəfə oğlan sevimli cizgi filmini yarımçıq buraxaraq, həsrətlə filmi seyr eləməkdə olan bacısına baxırdı. Onda mən qəribə hisslər keçirirdim və doğulacaq oğlumun həyatının çox hissəsinin dalımca qaçmaqda keçəcəyini anlayırdım...

# 55 YAŞIN QIYMƏTLƏNDIRMƏ BALLARI



*Bu günlərdə 80-ci illər ədəbi nəslinin istedadlı nümayəndəsi, Rustavi şəhərində yaşayıb-yaradan şair-publisist Tapdıq Yolçunun 55 yaşı tamam olub. Nəriman Əbdülrəhmanlının onunla söhbətini oxucularımıza təqdim edirik.*

***- Ömrünün iki "5"-lə ifadə olunan yaşına çatmış şair-publisist Tapdıq Yolçu yaşadığı həyatı necə qiymətləndirərdi?***

- İndilərdə qiymətləndirmə balları 10-filanla ifadə edilsə də, mən yenə hər bir olayın, əsasən, bizim öyrəncəli olduğumuz 5 bal sistemi ilə qeyd edilməsinə üstünlük verirəm. Bu mənada sualına belə cavab verərdim – bu yaşımın ilk yarısı "kafi", ikinci yarısı isə "qeyri-kafi"! Bunun "niyəsini" bir qədər açıqlayım. Belə ki, ötən əsrin 80-ci illərinin sonunacan həyatda istədiklərimə əsasən nail oldum, ali məktəbdə təhsilimi başa vurdum, yaşadığım rayon qəzetində işləyirdim, şeir və publisistik yazılarımla mötəbər qəzet və jurnallarda vaxtaşırı çıxış edirdim, ilk şeirlər kitabımı o vaxtkı "Yazıçı" nəşriyyatına təqdim eləmişdim... Sonra məlum Qarabağ hadisələri baş verdi, cikinə-bikinə bələd olduğumuz möhtəşəm bir dövlət dağıldı və bütün bunlar mənsub olduğum yaradıcı nəsli elə bir şoka saldı ki, yenidən dirçəlib, ayılmağımız üçün, mən belə deyərdim, təxminən on ildən çox zaman kəsiyi gərək oldu. Səmimi sözümdür, şəxsən mən o illərdə belə düşünürdüm ki, Vətənin düşmüş olduğu o ağır illərdə "şeirmi zamanıdır?!" Zənnimcə, məhz bütün səksənincilər bu səbəbdən bir aralıq "itirilmiş nəslə" çevrildi. Çinlilərin ən ağır bir qarğışı var – görüm səni keçid dövründə yaşayasan! Bizləri də, yəqin, taleyin qarğışı tutdu... Ancaq o da faktdır ki, bugünkü ədəbi mühitimizdə, doğrudan, istedadlı olan gənclərlə söz yarışında marafon yürüşünə qoşulub öz öncüllüyünü qoruyub-saxlamağa çalışan kifayət qədər həmyaşıdlarım var. Beləliklə, əlli beşimə verdiyim ortalama qiymət 2,5 olur. Bir şeirimdə dediyim kimi, "yaşamadım, yaşlandım"...

***- Şeirlərin necə doğulur: əvvəlcədən nəsə yazacağını hiss edirsən, yoxsa şeirlər qəfildən yaranır?***

- Kimin necə yazdığını deyə bilmərəm, ancaq məndə qəfil yaranır. Təsirləndiyim hər hansı bir nədəndən sonra bulud kimi dolub-boşalıram. Onu da deyim ki, həmin "dolub-boşalma" əməliyyatı hər dəfə fərqli də ola bilir, belə ki, eyni sürəc gah bir neçə dəqiqə, gah bir neçə saat, gah da bir neçə gün sürə bilir.

***- Bu yaşında "Taleyə sual" adlı bircə şeirlə toplun çap olunub. Taleyə verilən sualın cavabını almısan, yoxsa hələ gözləyirsən?***

- Dünyada elə bir adam varmı ki, taleyinə verdiyi suala cavab tapa bilsin?! Bizim hər birimizin ömrü elə bu suala cavab tapa bilmək arzusunda olub, axırda da bir sonsuz boşluğa baş vurmaqla bitmirmi?!

***- Tez-tez səfərlərdə olursan. Həmin səfərlər sənin poetik duyğularına təsir edir, yeni şeirlər yaranmasına səbəb olurmu?***

- Bilirsən, bu an nəyi xatırladım – sovet dönəmində yazıçı və şairlərimizin "yaradıcılıq ezamiyyətlərinə" göndərildiyini yaxşı bilirsən. Odur ki, o zamanın öndə olanlarının şeirlərinin sonunda filan tarix və "Peredelkino", "Pitsunda", "Şüvəlan" və bu kimi yer adlarına rast gəlirdik. O mənada mənim yazdıqlarımın da sonunda yazıldığı məkanı qeyd etdiyim yer adları çox müxtəlifdir. Yəni, əslində, heç də sevmədiyim, məcburən məşğul olduğum "işimlə" bağlı yollandığım hər səfərimdən ən çox qazancım da yazdığım bir neçə şeir və aldığım yeni kitablar olur (mən kitab alıb, oxumağı da yaradıcılıq hesab edirəm). Yeri gəlmişkən, onu da deyim və bunu sən də yaxşı bilirsən ki, mənim şəxsi kitabxanam çox zəngindir. Gürcüstandakı soydaşlarımız arasında bu cür sərvətə malik olanlar bir əlin barmaqları sayı qədərdir.

***- Gözəl ənənələri və bənzərsiz söz adamları olan Borçalı – Tiflis ədəbi mühitində yetişmisən. Həmin mühit yaradıcılığına necə təsir göstərib?***

- Nəriman, əzizim, sənə bir etirafımı açıq söyləyim – qeyd etdiyin mənada özümü heç də "Borçalı – Tiflis ədəbi mühitində yetişən" hesab etmirəm. Çünki orta məktəbi bitirəndən sonra həyat yolum ən əvvəl Sumqayıtdan keçdi. 1977-78-ci illərdə bu gənclik şəhərində ədəbi dərnəyə ayaq açdım və orada rəhmətliklər Şaiq Vəli və Akif Səmədlə tanışlıq və dostluğumuzun təməlini qoyduq. Sonra bir neçə illik Bakı həyatı və əvvəl rəhmətlik Nüsrət Kəsəmənli və sonralar tələbəlik illərimin sonunacan ustad şairimiz, hamımızın sevimlisi və ağsaqqalı Məmməd İsmayılın rəhbərlik etdiyi ovaxtkı Yazıçılar İttifaqı nəzdindəki Gənc Ədiblər birliyində əsl yaradıcılıq məktəbi keçdim. Xüsusilə, M. İsmayılın vaxtında ədəbi birliyimizdə hökm sürmüş bir məqamı qeyd etmək istəyirəm – tutaq ki, indi, çox zaman kimin hansısa şeiri barədə kiçik tənqidi fikir söyləyəndə, o gündən səndən küsüb, gen gəzməyə başlayır. Ancaq o vaxt kimin şeirləri müzakirəyə çıxarılırdısa, bir də görürdün, ona ən yaxın hesab edilənin biri həmin şeirləri yerlə-yeksan elədi. Məsələn, özümlə bağlı bir məqamı heç vaxt unutmaram. Şeirlərimi oxuyub qurtardıqdan sonra bir neçə nəfər həm müsbət, həm də tənqidi fikirlərini söylədi və sonda sayğılı şairimiz Vaqif Bayatlı Ödər belə bir cümlə ilə müzakirəyə qoşuldu: "Tapdıq Yolçuzadə (o zaman bu imza ilə çıxış edirdim) 500 kilometri havayı gəlib-getmir!" İndi Bakıda o vaxtlardan məşğul olmaq istədiyi ədəbi tənqid sahəsində elə bir uğura imza atmamış bir nəfər qayıtdı ki: "Tapdıq o yolu təhsil arxasınca gəlir!" Vaqif öz sözünü eynilə bir də təkrar elədi və bununla M. İsmayıl müzakirəyə son qoydu. Yəni, dediyim odur ki, mən o cür azman şairlərin sınaqlarından keçib Borçalı – Tiflis ədəbi mühitinə dönmüşdüm. Digər tərəfdən, çox yaxşı bilirsən ki, ən əzizim olsa belə, mən hər zaman mütləq həqiqətin tərəfdarı olmuşam. Yəni, tutaq ki, "El bilir ki, sən mənimsən"i himn kimi bizlərə bəxş etmiş Səməd Vurğunu, "Kimə açım dərdimi, Dünya dolu adamdır" təəssübü çəkən Rəsul Rzanı, "Sən mənim qədrimi biləsən, deyə, Bu cavan yaşımda ölümmü indi" ləliyən Əli Kərimi, "İlahi, qəlbimə bir sevgi göndər, İlahi, yazıqdır məni sevənlər!" deyən Məmməd Arazı, "Yenə bu şəhərdə üz-üzə gəldik, neyləyək, başqa bir şəhərimiz yox"u yazan Ramiz Rövşəni, "Qəribik, şairim, qəribik, sözüm" söyləyən Vaqif Bayatlı Ödəri, "Qara çadrasını açıb bir azca, Havayı baxmadı o gözlər mənə" pıçıldayan Sergey Yesenini, "Harda gərəkdisə, orda yatmadın, Yatmadın, ay qız" hayqıran Robert Börnsü, elə "Qopam, qolaylanam, düşəm uzağa" danışan Arif Mustafazadə və "Bu gün gəlməsəm də, gələrəm sabah, Siz mənə, siz mənə bir ömrü halal eləyin" diləyən İsa İsmayılzadə qədər hər zaman öz həmyerlim saymışam və sayacağam da. Əksinə, kimlərin xətrinə dəysə də, bizlərdə deyildiyi kimi, kəsə-kərəmətinə bunu da açıqca bəyan edirəm: şəxsi mənafeyi üçün orda-burda, gərək oldu-olmadı, pafosla "canım Borçalı, qanım Borçalı" deyənlərin "yerlisi olmağı" heç vaxt arzulamamışam, elə bir niyyətim, umacağım da yoxdur...

***- Yaşadığın yerdən Azərbaycan ədəbi mühiti necə görünür? Qələm dostlarının yaradıcılığını izləyə bilirsənmi?***

- Bugünkü Azərbaycan ədəbi mühiti mənə ötən əsrin 20-30-cu illərində yaşanılmış yaradıcılıq sürəclərini xatırladır. Yəni, bu gün ana vətənimizdə çox maraqlı və istedadlı gənclər meydana atılıblar. Bununla yanaşı, ortada hələ "köhnə qvardiya" – altmış və yetmişincilər, eyni zamanda, özünün ikinci gəncliyini yaşamaqda olan səksənincilər var. Yəni, bir tərəfdə Ə. Cavadı, C. Cabbarlını, H. Cavidi xatırladan "köhnələrdir", digər tərəfdə isə yeni quruluşun S. Vurğunları, M. Müşfiqləri, R. Rzaları "burada söz sahibi mənəm" deməkdədirlər. Əslinə qalsa, mən bu fikirdəyəm ki, o olaylar keçid dövrünə xas olan, normal bir sürəcdir. Bir də, bilirsən, ortada nə baş verir, oradakılar bir qədər "yerliçilik" bəlasına düçar olublar və bu da ədəbiyyata fayda gətirəcək hal deyil. Ən çox xoşuma gələn, bəyəndiyim məqamlarsa, bilirsən nədir? Slavyan Universitetində yaradıcılıq fakültəsinin açılması, ədəbi əsərləri təbliğ edən bir neçə saytın olması və xüsusilə, Nigar Köçərlinin "Əli və Nino" kitab mağazaları şəbəkəsinin varlığı və "Qanun" nəşriyyatının layihələri… Ancaq elə buradaca açıq söyləyim ki, sonuncuların əməyini Azərbaycan oxucusu heç də lazımınca qiymətləndirmir. Məsələn, belə bir fakt deyim: tutaq ki, hər dəfə mən Tiflisə gedib, kitab mağazasında alış-veriş edərkən, günün istənilən vaxtında, kassa önündə, ən azı, 3-4 nəfərdən sonra dayanmalı oluram. Bu hal, əminəm ki, "Əli və Nino"nun satıcılarına yuxu təsiri bağışlayar… Deyirik, 9 milyonuq, əzizlərim, bu ölkədə 9 min aktiv oxucu olsaydı, kitablarımızı öz xərcimizlə 500-1000 tirajla buraxmalı olmazdıq və aydındır ki, yazarlarımızın da böyük əksəriyyəti qələmi ilə ailəsini dolandırardı. Sualın ikinci hissəsinə gəlincə, əlbəttə, izləyirəm, həm də təkcə onların yaradıcılığını yox, maraqlı bildiyim və siz dostların da tövsiyə etdikləri müəlliflərin əsərlərini mütaliə edirəm.

***- Gürcü ədəbiyyatının bugünkü vəziyyəti haqqında nə deyə bilərsən? Səncə ədəbi əlaqələrimiz hansı vəziyyətdədir?***

- Ümumi vəziyyət heç də yaxşı deyil, desəm, yanılmaram. Burada yazarlar iki cəbhəyə bölünüblər, onlar həmişəki Gürcüstan Yazıçılar Birliyi və Gürcüstan Yazıçıları Milli Akademiyasında birləşiblər. Bir məqamı da xüsusi olaraq vurğulayım ki, həmin birliklərin heç biri dövlət tərəfindən maliyyə yardımı almır. Birincilərin orqanı olan "Literaturuli qazeta" ("Ədəbiyyat qəzeti") 2 həftədə, ikincilərinki "Literaturuli Sakartvelo" ("Ədəbi Gürcüstan") həftədə bir dəfə öz zoruna çıxır. Konkret olaraq yazıçılara gəldikdə, deyə bilərəm ki, özlərini "modernist" adlandıran Laşa Buğadze, Dato Turaşvili və Beso Xvedelidze, əsasən, beynəlxalq təşkilatlara bağlı olan QHT-lər tərəfindən maliyyələşdirilərək, çox nəşr olunur və oxunurlar. Yaşlı nəslə mənsub olanların bəziləri öz hesablarına kitablarını çap etdirirlər. Məsələn, gürcü sərbəst şeirinin öncüllərindən olan, çox maraqlı şair Besik Xaranauli Duşeti rayonunda doğma kəndində oturub, öz hesabına kitabını buraxdırır. Sovet dönəmində gürcü ədəbiyyatının başqa dillərə tərcümə edilməsi ilə planlı şəkildə məşğul olan mərkəz çoxdan tarixin arxivinə atılıbdır. Digər dillərdən tərcümələr də yalnız nəşriyyatların öz risqləri ilə tək-tük işıq üzü görür. Yəni, bizimkilərlə müqayisədə burada vəziyyət xeyli acınacaqlıdır. Yeri gəlmişkən, elə buradaca onu xatırladım ki, ədəbiyyatımızın yaxın dostu, "Koroğlu" eposumuzu, "1001 bayatı"mızı, Nizamidən tutmuş bir çox klassik və müasir şairlərimizin əsərlərini gürcü dilinə çevirmiş Zezva Medulaşvilinin bu il dekabrın 20-də 75 yaşı tamam olur. Çox gözəl bilirəm ki, buradakı yaradıcı qurumlardan heç biri ona layiq olduğu yubiley tədbiri keçirmək iqtidarında deyil. Yenə bizim müvafiq təşkilatlarımızın bu işdə təşəbbüsdə bulunması, məncə, çox yerinə düşərdi. Çünki o azman kişinin bizim ədəbiyyatımız qarşısında göstərmiş olduğu 50 illik xidməti hələ də lazımi şəkildə qiymətləndirilməyib...

***- Səncə, qələm adamının iddiası olmalıdırmı? Sən özün yaradıcılıqda iddialısanmı?***

- Qələm adamının mütləq iddiası olmalıdır, əks təqdirdə onun söz aləmində nə işi var?! Təbii ki, bu yolda mən də iddialıyam. Ancaq bir məsələ də var ki, bəzi yazanlar ortalığa iddiası yox, təkəbbürü ilə atılırlar. Bax elə həmin təkəbbür sahiblərinin çatışmayan cəhəti ondan ibarətdir ki, ustad bir ədibin rəhbərlik etdiyi hər hansı yaradıcılıq dərnəyində "döyülüb, bişib" çıxmayıblar. Misal olaraq, bizim o vaxtkı gənclər birliyində nələrin baş verdiyinə dair bir nümunə söyləyim: rəhmətlik Akif Səmədin hamımızın ən yaxşı hesab etdiyimiz bir şeirinin müzakirəsi zamanı rəhbərimiz M. İsmayıl demişdi ki, burada "Nə olsun ki" ifadəsi yerinə düşmür. İnan ki, həmin sözləri necə dəyişmək üzərində şəxsən mən də uzun zaman baş sındırmışdım... Və üzün illər ötəndən sonra ölümündən sonra mənə gəlib çatan kitabında Akifin həmin beyti belə yazdığını gördüm:

***Dərd ha deyil, düşmür çiçək,***
***Badamdan Akif Səmədə.***

Diqqət yetirdinmi, şeirin məna yükü nə dərəcədə artdı?! Bax, əsl ustad göstərişi, səni daha doğru yola düzənləməsi budur! Ancaq bu gün sən gəl özlərini "postmodernist-filan" adlandıran və əslində, dilimizin ən adi qrammatik qaydalarını bilməyənlərin yazdığı nə barədəsə mənfi fikir söylə... Ən azı səninlə düşmən olacaqlar... Deməli istədiyim də odur ki, belələri artıq iddialı yox, təkəbbürlüdürlər və son nəticədə bunun zərbəsi onların özünə dəyir...



***- Həyat qayğıları səni hansı arzularından aralı salıb?***

- Bəli, bu mənim üçün ən ağrılı sual oldu. Sən bircə onu söylə ki, həyat qayğıları məni hansı arzularımdan aralı salmayıb?!

***Saylı saraylarda say olmalıydım,***
***...Ola bilmədim...***

Şairliyimdən yana, ali təhsilli jurnalist kimi daxili potensialımı və necə bir qələm sahibi olduğumu sən də yaxşı bilirsən, bəzi bilməli olanlar da! Ancaq... Dostumuz İbrahimxəlilin iki il əvvəl Mediforum.az saytında haqqımda yazmış olduğu "Tapdıq Yolçunun Lilo romanı (ucqar havası)" adlı essesindən bir sitat gətirim: "Bütün hallarda mən Tapdıq Yolçunun Borçalıda rusların "Аргументы и факты" misallı bir gündəlik qəzetin redaktoru vəzifəsində olmasını daha təqdirəlayiq bilərdim. Ən azından. Nə isə..." Bu "nə isə"...yə onu da əlavə edim ki, bu gün Gürcüstanda tək mən yox, onlarla sanballı ziyalımız "tələb olunmaması" səbəbindən dolanışıq qazancını bazarlarda xırda ticarətdən çıxarmaq məcburiyyətindədir... Gəl, belə edək - bu yubiley müsahibəmdə "sandığı" bağlı saxlayaq. Onsuz da bu, elə bir aktual məsələdir ki, bir-iki cümlə ilə onun axırına çıxammarıq. Bir də, kim bilir, tale yolum bu səmtə yön almasaydı, bəlkə elə indiyəcən yaxşı-pis nə yazmışamsa, heç onları da yaza bilməzdim... Yəni, həyatda istədiyimə çatıb, xoşbəxtin birisi olsaydım, bu cür dərdli şeirlər yaza bilərdimmi?! Sən heç xoşbəxt şair tanıyırsanmı? Tanrının şairləri dünyanın dərdini çəkmək üçün yaratdığı fikrindəyəm.

***- Bildiyimizə görə xeyli çap olunmamış şeirlərin var. Növbəti kitabını nə vaxt nəşr etdirmək fikrindəsən?***

- Bəli, 2007-ci ildə öz hesabıma 200 səhifəlik birinci kitabımı Tiflisdə nəşr etdirdim, onların xeyli hissəsini dost-tanışlara hədiyyə etsəm də, bir qismini nəğd pulla özümdən alanlar oldu və sən özün də canlı şahidsən ki, Bakıda birgə təhvil verdiyimiz kitab mağazalarında da onlarla kitabım satıldı. Yadındadı, hələ sən belə bir fikir də söylədin: "Kitabının bu qədər satılacağını heç gözləmirdim". Mən də qayıtdım ki, qağa, ömrüm boyu qazancımın xeyli hissəsini kitab alışına sərf etmişəm, bunun qarşılığını verənlər də olmasınmı?! İndi də əlimin altında ondan, ən azı, iki dəfə artıq ortaya qoyulmağa layiq hesab etdiyim şeirlərim var. Nə deyim? Sən bir xasiyyətimi də yaxşı bilirsən ki, mən kimsədən maddi yardım istəyən deyiləm, odur ki, nə vaxt ailəmin dolanışığı üçün lazım gəldiyindən artıq pulum olanda növbəti kitabımı da nəşr etdirəcəm... İnşallah, təki sağlıq olsun!

# KÖŞƏ YAZILARI VƏ KÖŞƏ YAZI MÜƏLLİFLƏRİ

***Hörmətli redaksiya, salam! Xahiş edirəm bir sualıma cavab verəsiniz: nəyə görə bizdə nəşr olunan anadilli qəzetlərin heç də hamısında köşə yazılar olmur? Ümumiyyətlə, köşə yazıları nədir?***

***Bizdəki qəzetlərdən təkcə "Region Press" və hələlik nəşri dayandırılmış "Varlıq"da köşə yazıları görüb oxumuşam.***

***Hörmətlə: Zaira Bayramova, tələbə.***

***Redaksiyadan: Hörmətli Zaira xanım, sizin xahişinizi nəzərə alaraq bu araşdırmanı və bir neçə köşə yazını bu sayımıza daxil etmişik.***

***Diqqətinizə görə təşəkkür edirik.***

Qəzet, sayt və ya jurnalların künc sütunlarında dərc olunan, aktual, siyasi, iqtisadi, sosial və digər ictimai problemlərlə bağlı müəllifinin şəxsi yanaşmasını və subyektiv fikirlərini ifadə edən yazılara "köşə" deyilir. Köşələr adətən günü və ya həftəni əks etdirir, amma gündəmi uzun müddət zəbt edən köşələr də var. Müəyyən sahədə ixtisaslaşan



və ekspertə çevrilən köşə yazarları 2-4 min işarəlik yazılarında bəzən bütöv bir kitabda deyildiyindən daha çox şey deyə bilirlər. Məhz bu baxımdan, dünya mediasında ən çox qiymətləndirilən yazarlar da onlardır. Bu gün köşə yazarlarının sözünün qiymətini araşdırırıq.

**Köşə yazmaq asan qazanc mənbəyidir?**

Jurnalistikada ilk dəfə bu janr İngiltərədə yaranıb. Köşə yazmaq, əslində olduqca çətin və məsuliyyətli işdir-bütün dünya mediasında belə qəbul olunub. Maraqlıdır ki, bizim ölkədə bir çoxları köşə yazmağa, daha asan və daha gəlirli bir jurnalistika sahəsi olduğuna görə üstünlük verirlər. Köşə yazarı həm peşəkar jurnalist, həm də publisist olmalıdır. O, jurnalistika və publisitikanın janrlarından xəbərdar olmalı, onların bir və ya bir neçə növündə yazmağı bacarmalıdır.

Köşə yazarları adətən felyeton, pamflet, parodiya, esse, satirik hekayə janrlarına daha çox üstünlük verirlər. Lakin qəzet səhifələrinin küncündə gedən hər yazıya "köşə yazısı" demək doğru olmaz. Sivil ölkələrdə köşə yazarları adətən, peşəkarlığın yüksək səviyyəsinə çatmış, cəmiyyət tərəfindən qəbul olunan qələm sahibləri olurlar. İnsanlar onların yazdıqlarına inanırlar.

Azərbaycandakı köşə yazarlarının demək olar ki, əksəriyyəti "it otu, bağa yarpağı" silsiləsindən cəmiyyət üçün maraqsız və xeyirsiz yazılar yazır, amma di gəl ki, adı köşədir. Bir çox həmkarlarım razılaşarlar ki, bəzi köşə yazarları bir vaxtlar əldə etdikləri şöhrətdən faydalanaraq ağıllarına gələni, gözlərinə görünəni yazır və adını köşə qoyurlar. Bəzi saytlar, qəzetlər də, bu "köşələr"i "bəh-bəh"lə verirlər. Aforizmə çevrilmiş deyimlə desək, deyəsən, məşhur olandan sonra doğrudan da nə istəsən yazmaq olur...

**Küncdən dillənənlər**

Yaxşı yazarların yeri istənilən məclisdə, xeyirdə-şərdə başda olur, qəzetdə isə "küncə qoyulan" bəzi yazarların qüdrəti elə yerlərindən məlumdur.

Küncədə verilən müəllif yazılarını oxucular digər materiallardan qabaq oxuyurlar. Elə qəzetlər də var ki, onu təkcə bir köşə yazarının yazısına görə alırlar. Obrazlı desək, bizdə köşə yazarları "mətbuatın onurğa sütunu" sayılırlar. Köşə yazıları əksər prezidentlərin ən çox önəm verdiyi və izləməyə çalışdığı yazılardır. Demokratik ölkələrdə dövlət rəhbərləri köşə yazarları ilə tez-tez bir araya gəlir.

Təsadüfi deyil ki, bu gün dünyada tanınmış siyasətçilər də bir zamanlar məşhur köşə yazarları olublar. Amma köşə yazarlarının fəaliyyətinin genişlənməsi reportyorların, araşdırma və təhlil yazan jurnalistlərin işini bir qədər çətinləşdirir. Qəzetlər maliyyəsinin böyük hissəsini köşə yazarlarına ayırdığından digər jurnalistlərə daha az məvacib ödəməyə başladılar.

**Milyonçu köşəçilər**

Qonşu Türkiyədə köşə yazarlarının sayı 1000 nəfərdən çoxdur, amma onların heç də hamısı məşhur ola bilmədi. Bu ölkənin, daha çox yaşlı nəslin nümayəndələri olan ən məşhur köşə yazarları Ertuğrul Özkök, Ayşe Arman, Doğan Hızlan, Mehmet Ali Birand, Hıncal Uncal, Emin Çölaşan, Bekir Coşkun, Sedat Ergin, Yılmaz Özdil, Can Dündar, Fatih Altaylı, Abbas Güçlüdür. Ən məşhur yazarların demək olar ki, əksəriyyəti "Hürriyet"ə yazır. Amma "Milliyet", "Sabah", "Cümhuriyet" "Habertürk"də də yazan kifayət qədər tanınmış yazarlar var. Bizim mətbuatdan fərqli olaraq, türk mediasında köşə yazarları daha çox yaşlı nəslin nümayəndələridir.

Əksəriyyətinin yaşı 50-dən çox olan yazarların geniş dünyagörüşü, olduqca çox mütaliəsi, uzun illərə söykənən təcrübəsi var. Bu ölkədə köşə yazarı olaraq tanınmaq çox məsuliyyətli və eyni zamanda gəlirli işdir. Türkiyə mediasında imzasını tanıdanlar tanınandan sonra o qədər də güclü yazmırlar, bunu bütün köşə yazarları deyir, amma maraqlıdır ki, onlar bu yazılarına daha çox qonorar alırlar, çünki türk mediası qonorarı yazıya yox, yazara verir.

Türkiyənin "Milliyet" qəzetinin köşə yazarı Ali Eyüboğlunun "Gündəlik Teleqraf"a verdiyi açıqlamasına görə, bu qəzetdə ayda 2-3 min dollar alan köşə yazarları da var, 50 min dollar alanlar da. İndi isə Türkiyənin ən çox qazanan yazarlarının siyahısını veririk. Qonorarlar dollarla götürülüb.

1. Güneri Cıvaoğlu- 50 min
2. Ali Kırca- 40 min
3. Fatih Çekirge- 40 min
4. Gülgün Feyman- 30 min
5. Mehmet Ali Birand- 30 min
6. Aydın Özdalga- 30 min
7. Mehmet Barlas- 25 min
8. Reha Muhtar – 25 min
9. Ufuk Güldemir- 25 min
10. Savaş Ay- 20 min
11. Rauf Tamer- 15 min
12. Ayşe Arman- 10 min

Yazarların böyük məbləğdə qonorar alması məsələsi Avropa İnsan Haqları Komissiyası tərəfindən də araşdırılıb. Bildirilib ki, bunun nəticəsində mediada işləyənlərin sosial haqları pozulur. Belə ki, bütün dünyada köşə yazarlarına daha yüksək məvacib verildiyi üçün bu, araşdırmaçı jurnalistikanın qarşısını alır. Xatırladaq ki, Türkiyədə köşə yazarlarının üstünlükləri təkcə məvaciblə məhdudlaşmır. Onların köməkçiləri, assistentləri, sürücüləri də var. Məsələn, assistent onlar üçün gündəmdəki xəbərləri təqib edir, köməkçilər onların yazılarına verilən cavabları toparlayır, görüşlərini tənzimləyirlər.

**Maksimum-minimum qonorarlar**

Azərbaycanda gündəlik qəzetlərdə köşə yazarları bir yazılarına orta hesabla 30-50 manat alırlar.

Amma bu qəzetlərin demək olar ki, əksəriyyəti yazarlara məhdudiyyət qoyur. Hər yazar həftədə ən çox 3 dəfə köşə verməklə ayda təxminən 10-12 köşəsinə görə qonorar ala bilir. "Qafqazinfo.az" saytı köşə yazarlarına 25-30 arası qonorar ödəyir. Köşə yazarlarına ən az qonorar verən qəzetlərdən biri "Mərkəz"dir. Bu qəzetdə köşələr 10-20 manat arası qiymətləndirilir. "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli deyir ki, bu qəzetdə köşə yazılarının konkret qiyməti yoxdu: "Hər şey müəllifin istedadından, yazının keyfiyyətindən asılıdır. Bütün hallarda köşə yazılarının qiyməti daha yüksəkdir".

**Qəzetimizin köşə yazarları nə qazanırlar?**

Taleh Şahsuvarlının sözlərinə görə şəkilli yazı hələ köşə yazısı demək deyil: "İstər köşələrin mövzusu, istər səhifələşdirilməsi baxımından çox qüsurlar var.

Bu gün ölkəmizdə 20 nəfərə yaxın adam özünü köşə yazarı kimi təqdim edir. Amma obyektiv olsaq görərik ki, Azərbaycanda 5 nəfərdən çox köşə yazarı yoxdu. Köşə yazarı kimi Ertuğrul Özkökü müsbət qiymətləndirirəm, Dilqəm Əhmədi də yaxşı köşə yazarı hesab edirəm. Köşələrimin istər maddi, istər də məhdudiyyətsiz yayımlanması baxımından çətinliyim olmayıb. İndiyədək işlədiyim bütün mətbu orqanlarda da, hazırda "Gündəlik Teleqraf"da da aldığım qonorar məni qane edib". Arzu Abdulla bildirdi ki, bizim mətbuatda yaxşı köşə ilə pis köşə arasında o qədər də fərq qoyulmur: "Bir yazarın eyni adlı səviyyəsiz köşəsi bir neçə aparıcı mətbu orqanda dərc olunur. Səviyyəli yazılara isə məhdudiyyət qoyurlar. Mən Ayşe Armandan daha yaxşı köşə yazarıyam, bütün yazılarım böyük mütaliəyə söykənən həyat təcrübəsindən qaynaqlanır. Köşələrimdə konkret ideoloji xətt hakimdir və psixoloji, mənəvi, tərbiyəvi rol oynayır. Amma gəlin baxaq, Ayşe Arman köşələrindən ayda 10 min dollar pul əldə edir, mən qəpik-quruş. Mən köşəmi 50 manatdan aşağı qiymətləndirmirəm". Elçin Bayramlı isə deyir ki, o həmişə elə qəzetlərdə işləməyə çalışır ki, orada işinə ədalətli qiymət verilir. "Köşələrimə görə, heç vaxt heç bir qiymət sövdələşməsinə getməmişəm. Bu işi baş redaktorun öz insafına buraxmışam. "Gündəlik Teleqraf"ın yazıları dəyərinə görə qiymətləndirəcəyinə əminəm, çünki məhz bu ədalətli yanaşma tərzi söz verildiyi üçün burada işləyirəm". Dilqəm Əhməd isə bildirdi ki, bir köşə yazısı üçün 30-40 manat arası qonorar almağı düşünür: "Daha çox verilməsi bizim reallıq üçün uyğun deyil, bu məsələdə sadəcə təəssüfləndirici hal odur ki, bir köşə yazarı müəyyən müddət uğur qazandıqdan sonra nə yazmasından asılı olmayaraq, yüksək qonorarını verirlər. Yazıya deyil, şəxsə görə qonorar ödənilir. Mən bildiyimə görə, bizim ölkədə ən yüksək köşə qonorarı 50 manatdır".

**Qəzetlər qonorarı yazıya verir, yoxsa yazara?**

Ann.az saytının redaktoru Zahir Əzəmət deyir ki, Azərbaycanda qəzetlər yazıdan daha çox yazara qiymət verir: "Elə qəzetlər var ki, vaxtilə yaxşı qonorar verib, amma bir ara maliyyəsi zəifləyib, köşə yazarlarının bəzisini qonorarsız yazıb, qəzetin çətin vaxtında yanında olub və vəziyyət düzələndə əvvəlkindən daha yaxşı qonorar alıb. Əgər orta hesabla desək, Azərbaycanda köşələrin qiyməti 20-50 manat arası dəyişir". Azərbaycanda bu günə kimi köşə yazarları ən çox qonorarı "Gündəlik Azərbaycan"dan ala biliblər, həmin qəzetin köşə yazarları imzalarından asılı olaraq, ayda 500-800 manat arası qonorar alıblar. Amma bu gün heç bir qəzet köşə yazarına o qədər pul vermir. Əldə etdiyimiz məlumata görə, "Yeni Müsavat"da Zamin Hacının bir köşəsinə 40-50 manat verilir. Seymur Baycan bir yazısına 40-50 manat olmaqla, bir neçə yerdən ümumilikdə 800 manat qonorar alır. Yazar Elnur Astanbəyli isə "Azadlıq"dan təxminən 400-500 manat arası qonorar alır.

**Lalə Mehralı**

# Gerçək zənginliyə aparan yol...

**Qənirə Paşayeva**

*Milli Məslisin deputatı*



Gənclər arasında oxumağa, öyrənməyə meyldən daha çox qısa zamanda çox pul qazanmağa meylli olanları görəndə çox təssüflənirəm. Əslində bizi lazım olan gerçək zənginliyə aparan yol yalnız oxumaqdan, öyrənməkdən keçir. Gerçək zənginliyə aparan yol barədə bu hekayəni ilk dəfə oxuyanda çox xoşuma gəlmişdi və anlayan üçün çox dərin məna daşıyır.

Böyük Səlcuq Sultanlığı dövründə kiçik bir şəhərdə tək oğlu olan bir dul qadın yaşayırmış. Ölümün yaxınlaşdığını hiss edincə, oğlunu çağırır və ona belə deyir: "Çox çətinlik içində yaşadıq, çünki kasıbıq, amma sənə böyük bir zənginlik əmanət edirəm. Onu mənə güclü bir cadugər hədiyyə etmişdi. İçində böyük bir dəfinəyə çatmaq üçün bütün lazım olan işarələr mövcuddur. Mənim bunu oxuyacaq nə taqətim, nə də zamanım var. İndi onu sənə əmanət edirəm. Təlimatlara əməl etsən, çox zəngin olacaqsan!"

Anasını itirməyin verdiyi dərin üzüntü keçdikdən sonra oğul o qədim və dəyərli böyük kitabı oxumaq üçün əlinə aldı. Kitabın baş hissəsində belə yazılmışdı: "Xəzinəyə çatmaq üçün səhifələri çevirmədən oxuyun. Əgər dərhal nəticə hissəsinə keçsəniz, kitab bir sehirlə öz-özlüyündə yox olacaq və xəzinəyə çata bilməyəcəksiniz". Bundan sonra isə uzaq bir ölkədə yığılmış olan zənginliyin miqdarından bəhs edilir və bu xəzinənin bir mağarada çox yaxşı qorunmaqda olduğu yazılırmış.

İlk səhifələrdəki farsca mətn bir yerdə kəsilirmiş və bundan sonrası ərəb dilində davam edirmiş. Özünü indidən zəngin olaraq görməkdə olan gənc başqaları da bu sirri öyrənib, ona yanlış bilgi verərək xəzinəyə sahib olmasınlar deyə mətni tərcümə etdirməyə təşəbbüs etmir. Onun yerinə böyük bir ehtirasla ərəb dilini öyrənməyə başlayır, sonunda mətni mükəmməl şəkildə oxuyacaq hala gəlir. Fəqət, bir nöqtədən sonra kitab Çin dilində davam edirmiş, sonra da başqa dillər gəlirmiş. Gənc adam əzmlə və səbirlə bunların hamısının öhdəsindən gəlir. Bu arada yaşamaq üçün lazım olan pulu da öyrənmiş olduğu dillərdən təmin etməyi bacarır və bir müddət sonra paytaxtın ən yaxşı tərcüməçilərindən biri olaraq tanınır. Beləliklə, bir zaman sonra həyatı qaydasına düşməyə başlayır.

Bir çox dildə yazılmış olan bir çox səhifədən sonra kitabda bu xəzinənin necə idarə edilməsi gərəkliyinə dair təlimatlar varmış. Gənc adam istəkli bir şəkildə iqtisad və ticarəti öyrənir, ayrıca, xəzinəni bir dəfə ələ keçirdikdən sonra aldadılmalara məruz qalmamaq üçün qiymətli metalların və ləl-cəvahiratların, daşınan və daşınmaz əşyaların dəyərlərini təyin etməyi də öyrənir. Bu arada daha yaxşı bir həyat qurmaq üçün öyrəndiklərini tətbiq də etməyə başlayır. Hətta, onun çox dil bilən və maliyyədən yaxşı anlayan biri olaraq şöhrəti saraya, hətta, krala qədər çatır. Ona öncələr bəzi kiçik vəzifələr təqdim edən kral, sonunda onu krallıqda yüksək vəzifəyə təyin edir. Gənc kitabın sonuna doğru yaxınlaşdıqca texniki mövzular başlayır. Böyük qapı necə inşa edilir, böyük daş kütləri necə çıxardılır, yol inşası zamanı yolları sahmanlamaq üçün dolanbaclı yerlər necə doldurulur və buna bənzər məsələlər izah edilirmiş.

Bu sirrini əsla bir kimsə ilə paylaşmayı düşünməyən və dolayısıyla heç kimsədən yardım almayan o dul qadının oğlu, beləliklə, bilikli və sayılan bir adam olur. Daha sonra mühəndislik və şəhər planlamasını öyrənir. Çünki başqa cür kitabı oxumaq mümkün deyilmiş. Nəhayət, mədəniyyəti çox təqdir edən kral onu vəkili və sarayın memarı təyin edir və sonunda vəzirliyə kimi yüksəldir. Gerçəkdən bütün krallıqda artıq onun qədər elmli, Xəzinə Kitabını oxuyacaq qədər qabiliyyətli bir adam yox imiş. Nəhayət, son səhifəyə gəlir və bu son səhifəni oxu-yacağı gün artıq kralın qızı ilə toy günü imiş. Gənc ən son səhifəni çevirib bu son cümləni oxuyur: "Bilmək ən böyük xəzinədir!"

**P.S.**

Məncə, şərhə ehtiyac yoxdur. Gerçəkdən də elm, bilgi, bilmək ən böyük xəzinədir! Bu həqiqəti zamanında dərk edənlərin xoş halına!..

# Valeh ocağı

## *(triptix-retro)*

### 1. Əyriqarda kim qaldı?..

Yazıçı Əlabbas "səksənincilər" ədəbi nəslinə mənsubdur.Naxçıvandandır; daha dəqiqi, Şahbuz rayonunun Nursu kəndindəndir; xalq şairi, unudulmaz Məmməd Araz da bu kənddəndi. "Kəndim, balacasan, çox balacasan" adlı arazbarı şeir də yazıb:

***Kəndim, balacasan, çox balacasan...***
***Danışmaq da yükdür, susmaq da yükdür.***
***Böyük dünyamızın kiçik dərdləri***
***Böyük dərdlərindən daha böyükdür.***

Əlabbas ədəbiyyatımıza "Köhnə kişi" və "Qiyamçı" kimi romanlar bəxş edib: ədəbi mühitdə ədəbi hadisə kimi qeyd olunan romanlar...

"Qiyamçı" romanında Əyriqar adlı kənd var; dağlar qoynunda yerləşir.Nağıl dili ilə desək... hamı o kənddən köçüb gedir, təkcə Təbriz – əsl adı Bəbirdir – qalır. İlk baxışda Naxçıvandakı Əyriqarla Borçalıdakı – Başkeçiddəki Əyriqarın nə əlaqəsi ola bilər? Sözümün üstünə gəlirəm...

...Düz iyirmi il bundan əvvəl bizim bölgədə Başkeçiddən Qaraçöpəcən millətçilik dalğaları tüğyan edəndə Valeh Hacılar da mənim hazırda yaşadığım Kazreti qəsəbəsində yaşayırdı. Ətrafda baş verənlərdən heç nə anlamayıb Valeh müəllimgilə getdim.Qanı qara idi. Mənə bəzi şeylər söylədi və əlavə etdi: – Yadda saxla, Tolstoyun sözləridir, deyib "Millətçilik alçaqların son sığınacağıdır". İnşallah, keçib gedər, zaman belə qalmaz və əlavə etdi: görəsən Başkeçiddə vəziyyət necədir? Bir oğlu Fəxrinin üzünə baxdı, bir də Başkeçid tərəfə... baxa-baxa Vurğunun iki misrasını söylədi:

***Yaman gündə üzün dönməz,***
***Pozulmaz ilqarın, dağlar!***

Valeh müəllim bu ikicə misranı elə xiffətlə, elə qubarla pıçıldadı ki, indi aradan iyirmi il keçsə də qəhərlənirəm. O da yadımdadır ki, yüzə dözən yüz birə də dözər, – demişdi axırda Valeh müəllim.

Getdi o günlər bir də gəlməsin. Dünya Köç üstündə çox belə-belə köklənib...

Başkeçidin – Əyriqarın fikrini çəkə-çəkə bu misraları ürək hönkürdü, qələm yazdı:

***Əyriqarda bir mən qaldım;***
***qaldım... sellər, sular döyə,***
***Köçmədim, köçə bilmədim –***
***Sınıq körpü sınar deyə...***

İndi köçün arandan dağa daşlanan vaxtıdır.Bir ucu Qaraçöp, biri Başkeçid qoyun sürüləri, mal-qara, çobanlar yaylaq yolunu tutub gedirlər.Quyu qazan özü düşdü quyuya. Qoymadıq dağ yollarımızı ot-əncər basa!

...İndi Tiflisdə Valeh müəllimin mənzilindəyəm.Yolboyu gördüklərimi danışıram, əlavə edirəm ki, Köçün böyük hissəsi Ayortanı adlayan kimi Darvaz yolu gedir; belədə asandır. Valeh müəllim həsrəti boğaza gələn qərib kimi pıçıldayır:

***Darvaz ilə hər görüşün***
***Olar toy-düyün, ay könül!***

Valeh müəllimə bircə şeyi danışmadım: görmüşük çoban dağlardan oxuyar; şükür Allaha, bizdən çox dağlar havası olan ikinci millət çətin tapılar. Bu dəfə rastıma tuş olan yaylaqçıların önündə gedən qoca çoban Qəmərli – Qarabulaq yolunda Vidadidən oxuyurdu:

***Könül verdik hər bivəfa yadlara,***
***Hayıf oldu ömür getdi badlara...***

Bu yazıda Valeh Hacıların elmi titullarını, qazandığı uğurları sadalamıram; təkcə onu deməyi özümə borc bilirəm ki, necə ki, rus yazarlarının böyük qismi Qoqolun "Şinel"indən çıxmışdı, eləcə də Borçalı yazarlarının çoxu Valeh müəllimin Söz boxçasından doğulub; alimi – alim kimi, müəllimi – müəllim kimi, şairi – şair kimi...

Valeh müəllim bircə-bircə kəndləri soruşur. Sərhəddə, az qala iynə ucunda yaşayan Yırğançayın üstündə daha çox dayanır.

– Ayrıca Başkeçiddən yaz, sən bunu bacararsan, – deyə xüsusi vurğulayır. Öz ağrılarından bir kəlmə də demir, hiss edirəm mənim fikrimi çəkir, darda mənə dayaq olmuş hamıya təşəkkür edir, amma bağrımı da qana döndərir: – Sən cavansan, sən yaxşı ol, – deyir.

Sonra yenidən Əyriqara, Şamdüyəyə, Sənəkuçana qayıdırıq. Sacada, Hüseynçayda, Salamməlikdə, Şindilərdə bağlı qalan qapılardan, sökün düşüb yola əyilən çəpərlərdən, qar-qubar dolu ağsaqqal-ağbirçək baxışlarından danışmırıq. Bunlar haqda ruhumuz Ruhnamə yazır. Bilirəm ki, zaman-zaman tələbələrilə folklor ekspedisiyalarında cəmi Gürcüstanı qarış-qarış gəzib Valeh müəllim! Yanıqlı-yanıqlı Zəlimxandan söyləyir:

Sıxanda könlümü aran yerləri,

Quş olub qoynuna qonam, Başkeçid!

Sidq-ürəkdən deyim ki, ulu Sabir bu dağlar boyda misranı elə bil Valeh müəllim üçün yazıb:

Bənzərəm qocaman dağa ki, dəryada durar...

...həyətdən çıxıb üzüaşağı dayanacağa tərəf gedirəm.Açığı, müsahibə almağa gəlmişdim, gələn dəfəyə qaldı.

Arxamca Valeh müəllimin qeybdən gələn təki sehirli-işıqlı sözlərini eşidirəm: – Sən Ucqardan yazırsan, indi get gör Ucqarda yaşayan sənsənmi, mənəmmi?

Valeh müəllimə böyük ehtiramla geri dönüb Zəlimxan Yaqubun sözləri ilə cavab verirəm:

***Qəlbində qəriblik olan şairə***
***Paytaxtın özü də ucqardı, qardaş!***

Düz iyirmi il bundan əvvəl Valeh müəllim nisgillə: yüzə dözən yüz birə də dözər, – demişdi... Aydın havalarda Kazretidən Əyriqar aydınca görünür. Bizim dağlara – bəlkə də daha çox Valeh müəllimin dağlarına – yazdığım bu üç bəndlik şeir bu yerdə Əyriqara tərəf qatara düzülür:

***Üz döndərmə üzü bəri,***
***doymur səndən göz, ay dağlar!***
***Qubar örtən zirvələri***
***öpsün ucqar söz, ay dağlar!***

***Üz tutanla üz olmadın,***
***sən hər saza oynamadın.***
***Yüzə dözüb düz olmadın,***
***yüz birə də döz, ay dağlar!***

***Hər İbrahim Xəlil olmaz,***
***Allah sevən zəlil olmaz!***
***Aran deyib dəli olmaz,***
***yandırmaz hər köz, ay dağlar!***

…Valeh müəllimin Əyriqara xitabən: "Mənim sizdə nəyim qaldı?" sualının, hüzn və həsrət dolu sualının cavabını bir gəraylıda verməkmi olar? Hətta yüz bir gülqönçə və gülnar gəraylıda da!

### 2. "...Könül evi övliyalar bağçası"

Valeh müəllimin özü Tiflisdəki evini mənə belə nişan vermişdi: əvvəlcə küçənin adını çəkmişdi, sonra hüzn dolu səslə əlavə etmişdi ki, evin bir neçə addımında qurumuş ağac durur. "Əyriqarda kim qaldı?" adlı yazımda yazmışdım, sözümün təkrarına bir də qayıdıram. Ayrılanda Valeh müəllim əsrarlı - əsrarlı pıçıldamışdı: – İndi gör əsl ucqarda kim yaşayır? Sənmi, yoxsa mənmi?

Fikrim qurumuş ağacın yanında idi.Bütün vaqif adamlar kimi Valeh müəllim də, mən də dəqiq bilirdik – ağaclar niyə ayaq üstə ölürlər? İndən belə Valeh müəllim bir də Ortacalaya enən küçəyə çıxmayacaq, o qurumuş ağacın quruca budaqlarını təkcə böyük Allaha ayan olan sayğı ilə sığallamayacaq.

***Analar doğmur şairləri,***
***ancaq, ancaq***
***Göyüzünün dar ağacından***
***doğulur şairlər...***

Vaqif Bayatlı bu sətirləri sanki məxsusi olaraq Valeh müəllim üçün yazıb.Belə şehli, isti sözlər ancaq başdan-başa ağrı olan, Ağrıdağ olan şairlər üçün yazılır.Bəlkə buna görədir ki, şairlərdən "Haranız ağrıyır?" – deyə soruşan da olmur.

"Valeh Hacılar Gürcüstanda... vücuda gətirilən türk kültür və mədəniyyətinin, türk yaşayış və inanışının sözlü, yazılı və tarixi qaynaqlarının bilməsəl anlamda araşdırıb incələməyi özünə mənəvi borc bilən və uzun illərdir ki, bu ağırlığı daşıyan bir elm adamı kimi Gürcüstanda, Azərbaycan və Türkiyədə tanınmaqdadır". Bu sətirlər doktor Səmra Alyılmaza məxsusdur.

Qırıq-qırıq, ştrixlər, fraqmentlər şəklində yazmağımın yüz səbəbindən birincisi Valeh müəllimin vaxtsız – əlbəttə, məsləhət Allahındır – Köçüdür.

Hələ Kazretidə – dünyanın bu ucqar adlandırdığım yerində – yaşadığı illərdə Xəstə Hasanın bu iki misrasını həzin - həzin zümzümə etməyi çox sevirdi Valeh müəllim:

Xəstə Hasan xonçaların xonçası,

Könül evi övliyalar bağçası...

O, hamı üçün – bütün malik olduğu elmi dərəcələrsiz, titullarsız, bütün yaşıdlarından tez onu tapan şöhrətsiz – sadəcə Valeh müəllim idi...

Qar-boran ara vermir. İşlənmiş mübaliğə olsa da deyim ki, şairlərin dəfn günü nədənsə qarlı-yağışlı havalara düşür. Şair var beş cildliyindən bir şeir də qalmır, şair var beş şeirilə tarixə qatılır. Valeh müəllimin oğlanlarının – Fəxrinin, Namiq¬in və sevimli tələbəsi, indi dəfn mərasimində aparıcı olan şair Rafiq Hümmətin xiffət, dərd çökmüş üzlərinə baxmaq olmur; dağların dumanı çöküb... Arada-sırada mənə belə gəlir ki, vaxtilə öz aramızda "bizim Yesenin" adlandırdığımız Rafiq Hümmətin "Valeh vidası"ndan sonra Əyriqar o qədər əyiləcək ki, bellərimiz bir də düzəlməyəcək. Amma vaqif yazarlar, Heminquey demiş, əyilən, sınan yerlərdən güclənmirlərmi?Axı Valeh müəllim Rafiqi də, Allahverdi Təhləlini də, Tapdıq Yolçunu da – siyahını Başkeçiddən – Qarayazıya – Qaraçöpə uzatmağa lüzummu var? – daha da güclü görmək istəyirdi…

Çıxış edənlər bir-birlərini əvəz edirlər. Tanınmış ziyalılarımız Valeh Hacıların ömür yolunu vərəqləyirlər... Hamıya söz vermək imkan xaricindədir…

XVI əsrdə yaşamış aşıq Valehin:

***Alçaqlı – ucalı dağlar,***
***Halal eylə, hümmət eylə. –***

gəraylısının qeybdən səslənən sədaları altında Valeh müəllimi son mənzilə yola salırıq. Yolu qurtarmadı, ömrü qurtardı Valeh müəllimin...

Mənim mənsub olduğum ədəbi nəslin nümayəndələri ilə cəmi altı-yeddi il yaş fərqi olsa da xocamız, lələmiz idi...

Bu elegiya ilə son verirəm. Sağlıq olsun, ustad Valeh Hacıların adına layiq əsərlər hələ indən belə yazılacaq!..

***Gör Əyriqarda kim qaldı? –***
***tor görür gözüm, ay lələ!***
***Qara-qubara dayanmaz***
***daha bir sözüm, ay lələ!***

***Bəxtsiz bağbana toxunar;***
***uralandı el bostanı...***
***Duvaqqapmasız oxunar***
***"Valeh – Zərnigar" dastanı.***

***Belə kəsər səbirləri***
***ulduzdan əsən, ay lələ!***
***Eh, belimi Göyçə qırdı,***
***ümidimi sən, ay lələ!***

***Budurmu yarpaq tökümü –***
***göylər belə qan ağlayır?***
***Darvazın sənsiz yolları***
***beləmi qubar bağlayır?***

***Əsər Darvaz dərəsinə***
***ulduzdan əsən, ay lələ!***
***...Eh, belimi Göyçə qırdı,***
***ümidimi sən, ay lələ!..***

### 3. "Qalanlara salam olsun!.."

Bu qədim-qayım latın sözü "cultus" (kult) Başkeçidə, Əyriqarın ətəklərinə gəlib çıxana qədər də bizdə ayrı-ayrılıqda, misal üçün, Günəşə də, suya da, ocağa da məxsusi müqəddəs hörmət, hətta hörmətdən dolayı, səcdə-ehtiram da olub. Və arada-sırada bu pərəstişə, ilahiləşdirməyə qədər gedib çıxan bağlılıq heç zaman kor-korana olmayıb. Həmişə bir lirizmlə, bir ecazkarlıqla müşahidə olunub; eynən sözün bədii üslubdakı varlığı



vacib vəzifəsi olan poetik funksiyatək!..

...Valeh Hacıların mövzusunu "Hərşənin ocağı" əfsanəsindən aldığı eyniadlı poeması var: qadının ərinə verdiyi kösöy ocağa-ziyarətgaha çevrilərək ailənin güzəranını təmin edir. Fikrim heç də poemanın bədii məziyyətlərindən, ictimai məzmunundan hekayə anlatmaq deyil. Sadəcə, demək istəyirəm ki, "ocaq kultu" ilə Darvaz dərəsinin yarıalmasıtək oxşar, Valeh müəllim elə bir "Valeh ocağı" qoyub getdi ki, biz bu ocağın başına bu gün necə yığışırıqsa, sabah da, biri gün də başqaları da bu ocağın ətrafına yığışacaqlar.

Əlbəttə, necə ki biz – Mirzə Qələm də, mən də – Bayron deyilik, eləcə də Valeh müəllim Şekspir deyildi. Ancaq indi Valeh müəllimi bəzilərinin hörmətlə "Azərbaycan ziyalılığının Gürcüstan səfiri", "Türk dünyasının Gürcüstanda dalğalanan bayrağı" adlandırmaları öz yelkənli yerində, demək istəyirəm ki, onun qaladığı ocaq gecə-gündüz bərabərliyindəki Novruz ocağı deyildi, hətta "Dədə Qorqud"dakı həyəcan-cağırış ocağı da deyildi. Bu, sadəcə olaraq, "Valeh ocağı" idi; özü də vaqiflər üçün qalanmışdı.Bu ocağa oğlanları Fəxri qədər, Namiq qədər, hətta arada-sırada onlardan da artıq biz də qızına bilirdik.Bu odu kimdənsə oğurlamamışdı Valeh müəllim.Buna görə də onun "ocaq kultu"nda heç bir "Prometey müəmması" yox idi. Onun hətta özündən istedadlılardan da filhəqiqət fərqi adamları "ocaq başı"na yığa bilmək bacarığı idi. Valeh müəllimdən sonra ağzımızın bu qədər "əyilməyi" səbəbini ayrı nə ilə izah etmək olar ki? Yadınızdadırmı, qrammatik səviyyədə bir söz sırasının dəyişməsi deyilən şey var: bu baş verəntək necə pozuqluq – tozanaq düşür?

"Gəlimli-gedimli dünyanın, son ucu ölümlü dünyanın" məğzini hər nə qədər anlasaq da, təqvalılar üçün hazırlanmış Cənnətə hər nə qədər tələssək də, Valeh müəllimin sıramızdan getməyi gözlənilməz oldu.

Biz ona tay-tuş qədər, hətta ağrılarımızdan da şikayətlənirdik. O gülə-gülə: "Axı mən də eynən sizintək həkim deyiləm, mən də eynən sizintək Ağrıyam", – deyirdi. Gülə-gülə bunu da əlavə eləyirdi ki, ha, olmaya-olmaya birdən bu sözləri mənim adıma yazarsınız, bu Gertsenin fikridir.

Guya Gertsenə qədər ağrı-filan yox imiş!

Ucqarda yaşayan bir nəfər vaqif yazar haqqında deyibmiş ki, siz Allah, öyrənin görün qurbanlığı varmı, bir çətən külfətdilər, yoxdusa, göndərin.Mən bunu eşidən kimi, Valeh müəllimə "Axirət payı" adlı üççə bəndlik yazı göndərdim.

Bütün hallarda öz əbədi evlərini elə bu dünyadaykən abadlaşdırmağa başlayanlar indi çox azdırlar! Çünki qurbanlıq ət payından dolayı, bir qurbanlıq ümid, istinadgah payı da var...

...Əyriqarda indi kimlərin qaldığı Valeh müəllim üçün həyati bir məsələ idi. O bilirdi ki, Əyriqar adi yaşayış yeri deyil, həm də ədəbi ərazidir.

**P.S.**

Ruhuma yaxın yazarlardan biri yazıb ki, mən ömrüm boyu yazmaq istəmişəm ki, dünya gözəldir... amma nədənsə bu sözlər həmişə ilişib boğazımda qalır.

Aprelin 15-i Valeh müəllimin ad günüdür. Boğazımın və şehli ümidimin ağrımağı boğazımda ilişib qalan sözlərdən deyil, sadəcə, o yoxluqla bağlı həsrətim boğazıma gəlir.

Hətta dünyadan gedərkən də şəfaət şükrlə "qalanlara salam olsun!.." deyənlərdəndi Valeh müəllim...

**İbrahimxəlil**

# Beyini daha yaxşı işlətməyin yolları

"New Scientist" elmi jurnalı beyinin ən önəmli 7 funksiyasının necə işlədiyini və bunlardan necə daha yaxşı yararlanmaq yollarını öyrənmək üçün tanınmış mütəxəssislərin fikrini öyrənib. Məqalədən əsas bölümləri qısa əlavələrlə diqqətinizə yetiririk.

Beyinin çalışma mexanizmini ən yaxşı bilənlər neyropsixoloqlardır.Nüfuzlu "New Scientist" elmi jurnalı beyinin ən önəmli 7 funksiyasının necə işlədiyini və bunlardan, necə daha yaxşı yararlanmaq yollarını öyrənmək üçün tanınmış mütəxəssislərə üz tutub.

### DİQQƏT

Beyinimizin ən önəmli və təməl funksiyasından biri diqqətdir.Diqqət bəlli bir zaman dilimində nəyi sezəcəyimizi müəyyənləşdirir və bunun fərqində olmağımızı təmin edir.Çevrəmizdə olub-bitənlərdən bir anlam çıxara bilməkdən ötrü bizimlə əlaqəsi olmayan hər şeyi süzgəcdən keçirməmiz və yalnız bir şeyə köklənməmiz lazımdır. Diqqət funksiyasının işi bununla bitməz: nəyisə əzbərləmək və ya öyrənmək üçün də diqqətimizi toplamalıyıq. Dolayısıyla diqqəti kökləmək qabiliyyətini inkişaf etdirsək, beyinin başqa funksiyalarını da gəlişdirə bilərik.

### DİQQƏTDƏN YARARLANMAQ YOLLARI

Beyinin 2 diqqət sistemi var: "aşağıdan-yuxarı" və "yuxarıdan-aşağı". "Aşağıdan-yuxarı" diqqət ani səsləri, tərpənən əşyaları və ya toxunma kimi önəmli hissləri avtomatik sezdirir. Bu sistem sürətlə çalışır və hər zaman fəaliyyətdədir.

"Yuxarıdan-aşağı" diqqət sistemi bilərəkdən yararlandığımız diqqətdir. Nəyi düşünmək istəyiriksə, onu hədəfə alır və diqqətdə saxlayır.Belə diqqət hər hansı bir işi görməyimizi təmin edir və həmin işə köklənir.

Amma diqqətimiz yayına da bilər. Yuxarıdan-aşağı diqqət, dözüm tələb edir və onun dağılma riski yüksəkdir.Onu dağıdan aşağıdan-yuxarıya diqqətdir.

### DİQQƏTİ NECƏ İNKİŞAF ETDİRMƏK OLAR?

Diqqətin dağılmasını önləmək bizim əlimizdədir.Telefonun səsini azaltmaq, televizoru söndürmək kimi adi üsullarla aşağıdan-yuxarı gələn diqqət dağıdıcılarını əngəlləmək olar. London Universitet Kollecində çalışan neyropsixoloq Nilli Lavienin fikrincə, belə bəsit üsullar beyinimizin "yuxarıdan-aşağı" diqqət tutumunu artıra bilər.

O, öz araşdırmalarında «yuxarıdan-aşağı» diqqəti inkişaf etdirməyin yolunu tapıb: bundan ötrü diqqəti bir şeyə deyil, çox şeyə cəmləşdirmək lazımdır. Lavienin "yüklənmə teoremi"nə görə, beyin bəlli həddən sonra aldığı siqnalları qəbul etmir. Bunlara diqqətdağıdıcılar da daxildir.

Lavie bu kəşfinin həm diqqətdağıdıcılar, həm də dalğınlıq üçün keçərli olduğunu söyləyir.Real həyatda görülən işlər, vizual element əlavələriylə daha diqqətçəkici hala gətirilə bilər. Məsələn, yazılı bir mətni çərçivəyə almaq, arxa planı– fonu rənqləmək yoluyla.

Bu baxımdan yaddaşın gəlişdirilməsi də fayda verir. Diqqətini cəmləşdirə bilməyənlər və ya beyini zədəli xəstələrlə işləyən alimlər yaddaşı gəlişdirməklə diqqəti uzun müddət bir nöqtədə toparlamağın mümkünlüyünü düşünürlər.

Zehni qabiliyyəti artırmağın bir başqa yolu meditasiyadır. Meditasiya edən insanların beyinləri öyrənilərkən, beyinin diqqətlə bağlı sahələrinin daha yaxşı inkişaf etdiyi üzəçıxır.

### İŞLƏK YADDAŞ

İşlək yaddaş da beyinin diqqət qədər həssas funksiyalarından biridir. Bildiyimiz və anımsadığımız hər şey işlək yaddaşda toplanır.

Ancaq işlək yaddaş uzunmüddətli yaddaş üçün dəyiş-düyüş yeri deyil.İndi işlək yaddaşa beyinin qeyd dəftərçəsi kimi baxılır.Buradakı bilgilər müvəqqəti saxlanır. Bu bilgiləri düşünərək və seçərək çalışırsınızsa, demək, işlək yaddaşdan yararlanırsınız.

Bu gün bəzi əsəb həkimləri işlək yaddaşın ayrı bir sistem olmadığını, əksinə, uzunmüddətli yaddaşın bir parçası olduğunu düşünürlər.

Hər necə olsa da, işlək yaddaş insan beyninin standart hissələrindən biridir, amma bəzi insanların işlək yaddaşı digərlərindən daha yaxşıdır.

### MƏNTİQLİ DÜŞÜNCƏ VƏ RASİONALLIQ

İnsanlar özlərini məntiqli və ağıllı varlıqlar kimi görməyə meyllidirlər. Əslində də belə ola bilərsiniz, ancaq bundan ötrü xeyli əmək sərf etmək qaçılmazdır.



Məntiqli düşüncə insanların bir mikromenecer kimi davranmasını tələb edir. Axı insanların çoxu belə doğulmur və yalnız sonradan verilən təhsil və tərbiyə, eləcə də çalışma sayəsində məntiq qazanırlar.

"Sol beyin - məntiq, sağ beyin - inanc" şəklində yayılmış təsəvvür, əslində, elmilikdən çox da uzaq deyil. Görüntüləmə texnikası iləəldə edilən bilgilərə görə məntiqli bir düşüncə silsiləsi formalaşdırmaq üçün yalnız sol yarımkürənin fəaliyyəti lazımdır.

Di gəl, məntiqli bir düşüncə ilə inanc arasında bir ziddiyyət olduğu zaman məhz sağ yarımkürənin "müdaxiləsi" ziddiyyəti aradan qaldırır. Amma təəssüf ki, çox vaxt udan tərəf sağ yarımkürə olur. Son illər ard-arda aparılan təcrübədən bu nəticə çıxır: Mövcud təsəvvürlərə zidd olan yeni bilgi ortaya çıxdığı zaman beyin sanki geriyə boylanaraq köhnə təsəvvürlərə ilişib qalır. Başqa sözlə, mövcud düşüncələri yeniləşdirmir.

Üzə çıxan digər bir maraqlı məqam da odur ki, güclü duyğular məntiqli qərar almağımıza mane olur. Bu, sevdiyimiz insanlarla bağlı qərarlarda özünü daha çox hiss etdirir.

# Çox yatmağın zərərləri

Alimlərin müxtəlif yaş qruplarından olan insanlar üzərində apardıqları araşdırmalardan sonra məlum olub ki, həddən artıq çox yuxu insan beyninə yuxusuzluq qədər neqativ təsir göstərir.

Uorvik universitetinin alimləri 50-64 yaş arası 9000 adam üzərində araşdırma aparıblar. Gün ərzində 8 saatdan az yatan adamlarda yaddaş və diqqət problemləri üzə çıxıb. Gün ərzində 8 saatdan çox yatan adamlarda da analoji problemlər ortaya çıxıb.



Araşdırmanın müəlliflərindən biri, professor Françesko Kappussio deyir ki, yalnız doğru miqdarda yuxu yaşlı adamlarda əqli gerilənmənin qarşısını ala bilər:

"Fiziki və əqli sağlamlıq üçün yuxu olduqca vacibdir". Optimal yuxu ahıl yaşlarındakı insanların beyinlərinin funksiyasını normada saxlayır.

# Xoşbəxt olmağın on qızıl qaydası

Müxtəlif elm adamlarının xoşbəxtlik barəsində apardığı araşdırmalardan çıxarılan 10 nəticəni təqdim edirik.

## 1. Xeyirxah olun

"Psychological Bulletin"də yayımlanan araşdırmaya görə özünüz üçün yox, başqaları üçün pul xərcləmək, özünüzü daha yaxşı hiss etməyinizə gətirib çıxarır. Ən xoşbəxt insanların, paylaşmağı sevən insanlar olduğunu sübut edən araşdırmaya görə, xeyirxahlıq edərək, başqalarına pul verərək xoşbəxt ola bilərsiniz.

## 2. Şükür edin

Pensilvaniya Universitetinin professoru Martin Seliqman hər gecə onları xoşbəxt edən üç yaxşı şeyi yadına salan insanların digərlərindən daha xoşbəxt olduğunu sübut edib. Sizi xoşbəxt edən şeylərin çox da mühüm şeylər olması vacib deyil. Həyat yoldaşınızın sevdiyiniz şirniyyatı xatırlayıb alması belə şükür etməyiniz üçün yetərlidir.

## 3. Təzə şeyləri sınayın

Araşdırmalar göstərir ki, yeniliklər edən, yeni təcrübələr yaşayan və rutin həyatdan çıxmağı bacaran insanlar daha xoşbəxt olurlar. Yeni şeylər sınamaq beyin dalğalarını oyandırır.

## 4. Hədəflər müəyyən edin

Psixoloq Jonathan Freedman qarşısına qısa, yaxud uzun müddətli hədəf qoyanların,digərlərinə nisbətdə daha xoşbəxt olduqlarını iddia edir. Viskonsin Universitetindən Richard Davidson isə deyir ki, hansısa məqsəd naminə çalışmaq, müsbət emosiyalar oyadır insanda.



## 5. Bitərəf olun

"Ultimate Happiness Prescription" adlı kitabın müəllifi Deepak Chopra yazır ki, xoşbəxt olmaq üçün tərəfsiz olmaq lazımdır: "Əgər öz mövqeyinizi müdafiə etməyi dayandırsanız, enerjinizin 99 faizinə qənaət edərsiniz və daha çox xoşbəxt olarsınız".

## 6. İnanclı olun

Aparılan yeni araşdırmalara görə inanclı insanlar olmayanlara nisbətdə həyatlarından daha məmnun və xoşbəxtdirlər. Melburn Universitetindən Bruce Headeyin 25 illik araşdırmasının nəticəsində bəlli olub ki, inanclı insanlar karyera narahatlığından uzaqdırlar və ruhən daha stabildirlər.

## 7. Azı 6 saat yatın

İngiltərədə aparılan bir araşdırma göstərir ki, gündə ən az 6 saat 15 dəqiqə davamlı olaraq yatmaq, insanın xoşbəxt olmasında böyük əhəmiyyət daşıyır.

## 8. On yaxşı dostunuz olsun

Nottinqam Universitetinin araşdırmasına görə ən azı 10 yaxşı dosta sahib olduğunu deyən yetkin insanlar, beşdən az dostu olanlara nisbətdə daha xoşbəxtdirlər. Daha xoşbəxt hiss etmək üçün, dost çevrənizi genişləndirməyiniz lazımdır.

## 9. Tez-tez gülümsəyin

Gülümsəmək və xoşbəxt insan kimi davranmaq insanda müsbət emosiyalar yaradır. Durduğunuz yerdə, heç bir səbəb olmadan gülümsəsəniz, əhvalınız düzələcək.Bu da araşdırma nəticəsidir.

## 10. Romantik olun

Münasibətlərin xoşbəxtliyə çox böyük təsiri var. Kornell Universitetində aparılan araşdırmaya görə sevgi münasibəti olan insanlar, olmayanlara nisbətdə daha xoşbəxtdir.

# BOLNİSİDƏ DOĞAN GÜNƏŞ



**Dünyamalı Kərəm**

Gürcüstanın "Şərəf ordeni kavaleri, əməkdar jurnalist, Azərbaycan Yazıçılar Birliyinin üzvü.

Bolnisi Mədəniyyət Mərkəzinin (BMM) təsis edilməsi, rəsmi fəaliyyətə başlaması və Mərkəzin mətbuat orqanı olan "Ümid" qəzetinin ilk sayının işıq üzü görməsi münasibətilə mərkəzin və redaksiyanın əməkdaşlarını, soydaşlarımızı səmimi qəlbdən təbrik edirəm. Ümidvaram ki, "Ümid" öz sələfi olan "Al bayraq" və "Qələbə bayrağı" qəzetlərinin vətənpərvərlik ənənələrini yaşadan ilk qaranquşu, layiqli davamçısı olacaqdır.

Bolnisinin gözəlləşdirilməsi, rayon iqtisadiyyatının yüksəldilməsi, əhalinin maddi rifahının yaxşılaşdırılması, mənəvi dəyərlərin gözəlləşməsi üçün həyatımızın bütün sahələrində dövlətin həyata keçirəcəyi kursların, qərar və qanunların yerinə yetirilməsində "Ümid" qəzeti təbliğatçılıq, təşviqatçılıq və təşkilatçılıq roluna sadiq qalacaqdır.

XATIRLAMA: "Mən 1930-1949-cu illərdə "Ümid"in sələfi olan "Al bayrağ"ın fəal müxbirlərindən biri idim. ADU-nun qəbul imtahanlarına qədər qəzetin ştatlı ədəbi işçisi vəzifəsini yerinə yetirmişəm. "Gözəl abidədir", "Fəxrisən Azərbaycanın", "Ə.B.Haqverdiyevə", "Sənətkar ölməz" və s. adlı şeirlərim, bir sıra məqalələrim "Al bayraq" qəzetində dərc olunmuşdur.

1937-ci ildə kəndimizdəki "26-lar" adına kolxozun birinci briqadasının bostan şöbəsinin torpaq sahəsi alaq otları arasında itib-batmasından yazdığım məqalə mənə baha başa gəldi. Kolxoz ilk komsomol təşkilatının ümumi yığıncağında həmin şöbənin briqadirinin qərəzli çıxışına, "xalq düşməni" kimi Sibirə sürgün edilən atamla guya "əlaqə saxladığıma" görə iclasın qərarı ilə məni komsomol sıralarından xaric etdilər. Moskvaya yazdığım ərizə yoxlanıldıqdan sonra məni komsomola yenidən bərpa etdilər".

"Ümid" qəzetinin nəşri hamıdan çox məni sevindirdi. Ona görə ki, qəzet gəncliyimin, ötən günlərimin "mürgülü xatirələrini" oyadıb bir daha yada saldı.

***Şirin xatirələr dindi sinəmdə,***
***Məni "Al bayraq"lı çağlara çəkdi.***
***Gözlərim önündə day durdu "Ümid",***
***Laləli, nərgizli bağlara çəkdi.***
***"Qoçulu qalası" tutdu əlimdən,***
***"Yeldağı" ünvanlı dağlara çəkdi.***

# Qürur yerimiz: Zahid Xəlilov



Tanınmış jurnalist Möhbəddin Səmədin məşhur bir aforizmi var: "Dünya dahilərsiz yaşaya bilmir". Doğrudan da dünyamız Tusi, Nyuton, Eynşteyn, Lütfü Zadə kimi dahilərsiz yaşaya bilməzdi.

Dünya elminin korifeylərindən biri də üçüncü minilliyin ilk günlərində 90 illik yubileyini qeyd etdiyimiz görkəmli Azərbaycan riyaziyyatçısı, akademik Zahid İsmayıl oğlu Xəlilovdur.

Əsli Borçalının Saraçlı kəndindən olan Zahid Xəlilov 1911-ci ildə Tiflis şəhərində anadan olub. Tiflisdə Pedaqoji texnikumu bitirdikdən sonar Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat şöbəsinə daxil olub. Ali təhsilini müvəffəqiyyətlə başa vurandan sonara Tiflisə qayıdır və Tiflis Dəmiryolu Mühəndisləri İnstitutunda dosent vəzifəsində işləyib. 1937-ci ildə Tiflis Riyaziyyat İnstitutunun aspiranturasına daxil olub. Tanınmış riyaziyyatçılar, professor S.Bercmanın və akademik N.İ.Musxeloşvilinin elmi rəhbərlikləri altında 1940-cı ildə "Klebşa məsələsi və onun ümumiləşməsi" mövzusunda müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edib.

Zahid Xəlilov 1940-cı ildə Bakıya köçüb və 1942-ci idə SSRİ EA Azərbaycan filialının Fizika bölməsinə işə dəvət edilib. Burada ilk dəfə təşkil etdiyi nəzəri fizika və riyaziyyat bölməsinə rəhbərlik edib. Bölmənin birinci və yeganə riyaziyyatçısı olan Z.Xəlilovun rəhbərliyi altında ilk dəfə olaraq diferensial tənliklər, cəbr, diferensial həndəsə, nəzəri fizika sahəsində tədqiqat işləri aparılıb. Onun rəhbərlik etdiyi bu bölmə sonradan açılmış Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunun, eyni zamanda, Kibernetika İnstitutunun əsasını qoydu.

1959-cu ildə Z.Xəlilovun təşəbbüsü və rəhbərliyi altında Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutu təşkil edildi və o, bu institutun ilk direktoru oldu. O, Azərbaycanda funksional analizin əsasını qoymaqla böyük funksional analiz məktəbini yaratdı. Keçmiş sovet məkanında "Funksional analiz" (rus dilində) adlı ilk dərsliyi 1949-cu ildə məhz Zahid Xəlilov yazmışdır.

Z.Xəlilov müasir riyaziyyatın mühüm istiqamətlərindən biri olan sərhəd məsələlərinin həlli nəzəriyyəsi sahəsində sanballı və uğurlu nəticələr almışdır. Bu nəticələr onun 1946-cı ildə Moskvada müvəffəqiyyətlə müdafiə etdiyi doktorluq dissertasiyasının əsas məzmununu təşkil edirdi. Zahid Xəlilov Azərbaycanda fizika-riyaziyyat elmləri doktoru olmuş ilk azərbaycanlı riyaziyyatçıdır.

Onun 1953-cü ildə qazın və qaz vurulmuş neftin süzülmə məsələsinə aid həll etdiyi məsələ neft sənayesinin inkişafına çox kömək etmişdir. Dəyişənlərinə ayrılmayan hiperbolik və parabolik tənliklər üçün qarışıq məsələnin yeni həlli üsulu da Z.Xəlilov tərəfindən verilmişdir. Bununla da o, Azərbaycanda hesablama riyaziyyatının əsasını qoydu.

Azərbaycan elminin böyük təşkilatçılarından biri olan Z.Xəlilovu yalnız riyaziyyatçı və ya mexanika alimi adlandırmaq olmaz. O, müasir elmin bir çox sahələrində zəngin ensiklopedik biliyə malik olan bir şəxsiyyət kimi tanınır. O, Azərbaycan EA fizika-texnika və riyaziyyat bölməsinin akademik katibi, EA-nın vitse-prezidenti(1957-1959), prezidenti(1962-1967), Riyaziyyat və Mexanika İnstitutunun direktoru vəzifələrində çox böyük işlər görmüşdür. Onun N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının yaradılmasında və inkişafında xüsusi xidmətləri olmuşdur. Akademik Z.Xəlilov sovet riyaziyyatçıları Milli Komitəsinin üzvü olmuşdur. O, elmi kadrların hazırlanmasına böyük əmək sərf etmişdir.

Zahid Xəlilov elmi yaradıcılıqda, əsərlərin çap olunmasında kəmiyyətə deyil, keyfiyyətə daha çox üstünlük verirdi. O, riyaziyyat sahəsində bir sıra maraqlı, məşhur kitabların və 100-dən artıq elmi əsərlərin müəllifidir.

Zahid Xəlilov dəfələrlə keçmiş SSRİ Ali Sovetinin deputatı seçilmiş, yüksək Dövlət və hökumət mükafatları ilə təltif edilmiş, fəxri adlara, orden və medallara layiq görülmüşdür. O, Azərbaycan EA-nın ilk akademiklərindən(1955-ci ildən), əməkdar elm və texnika xadimi(1955-ci ildən) idi. Azərbaycan Riyaziyyatçıları Cəmiyyətinin prezidenti seçilmişdir. Azərbaycan elmini dəfələrlə xarici ölkələrdə keçirilən konqres və qurultaylarda təmsil etmişdir. Zahid Xəlilov 4 fevral 1974-cü ildə Bakıda vəfat etmişdir.

…İllər ötəcək. Qərinələr bir-birini əvəz edəcək. Adı dünya elm salnaməsinə QIZIL hərflərlə yazılmış Zahid Xəlilovun parlaq xatirəsi, elmi iris onun davamçılarının əməllərində yaşayacaqdır.

P.S. Akademik Z.Xəlilovun elmi uğur və nailiyyətlərini kiçik həcimli məqalədə ətraflı şərh etmək qəzetin imkanı xaricindədir. Biz onun bir neçə elmi istiqamətdə qazanılan uğurları haqqında oxuculara qısa məlumat veririk.

**Materialı redaksiyaya təqdim etdi:**
**NİZAMİ SARAÇLI**

## Təbrik edirəm!



**Əli Abbas**

***Aərbaycan Yazıçılar Birliyinin üzvü***

Hörmətli redaktor! Bolnisidə yeni qəzetin nəşr olunması münasibətilə sizi və oxucularımızı ürəkdən təbrik edir, daha səmərəli və məzmunlu yaradıcılıq uğurları arzulayıram. İnanıram ki, "Ümid" adlı qəzetin yaradıcı heyəti bizim ümidlərimizi doğruldacaq və əhalinin problemlərinin həllində əhəmiyyətli rol oynayacaq, ölkəmizin bütün sahələrdə inkişafı ilə bağlı dərc etdiyiniz müxtəlif xəbərlərlə bizi sevindirəcəkdir. Bir qələm sahibi olaraq arzu edərdim ki, qəzetinizin səhifələrində poeziya və nəsr yaradıcılığına da geniş yer verəsiniz. Bir daha böyük uğurlar diləyi ilə.

# NƏSİB BABA

## (sənədli hekayə)



Nəsib babanın atası Nəbi kişinin ailəsi Qoçulu elində ən kasıb yaşayan ailələrdən biri idi. Böyük ailəsini dolandıra bilməyən Nəbi kişi kiçik yaşlı böyük oğlu Nəsibi Qaboy adlı bir tavada (varlı, imkanlı) nökər verir. O, savadsız olduğuna baxmayaraq gözüaçıq, bacarıqlı bir gənc idi. Hər şeylə maraqlanan gənc Nəsib 18 yaşa çatanda (1918-ci ildə) kommunist partiyası sıralarına qəbul olunanda bacardığı qədər həmvətənlərinə yardım etməyi qarşısına məqsəd qoymuş və o yeri gəldikcə istəyinə nail olur.

1936-1937-ci illərin qanlı-qadalı represiya dövründə həmkəndlisi Molla Mahmud Ömər oğlunu həbsdən azad etdirir. O, bu sətirlərin müəllifinin atası qaçaq Kərəm Alı oğlunu toy-balabanla NKVD-nin (indiki Daxili İşlər Nazirliyi-Ə.Y.) Lüksemburq (indiki Bolnisi şəhəri) rayon şöbəsinə aparır. Ona azadlıq sənədi verdirib tou-balabanla da geri kəndə qaytarır. Atam Kərəm kişinin qolçomaq siyahısına düşüb "səsi alınan" zaman Nəsib baba onu həyat yoldaşından rəsmən ayırtdırır və ailəsinə 5 baş sağmal mal-qara verdirir.

1932-ci ildə kənddə yaradılan "26-lar" adına kolxoza (kollektiv təsərrüfat-Ə.Y.) rəhbərlik etdiyi, İmirhəsən kənd sovetliyinin deputatı olduğu illərdə Nəsib baba kənd camaatının güzəranının yaxşılaşdırılması üçün çox işlər görür. O, daşdan keçən imzası-yanaşı qoyduğu üç toplama işarəsi ilə 3 sinifli məktəb binası inşa etdirir.

Nəsib baba yan-yana düzülmüş 3 toplama işarəli imzası ilə 30 illik səmərəli əmək fəaliyyəti dövründə xalqın etibarını qazanmış, el-obanın sevimlisinə çevrilmiş, qoçuluların ürəyində foneminləşmiş, Dədə Qorqud kimi qəlblərdə heykəlləşib "Nəsib babaya" çevrilmişdi.

Nəsib babanın təşəbbüsü ilə salınan 85 hektar və hər hektarı 100-120 sentner məhsul verən üzüm bağları təkcə Bolnisi rayonunda deyil, bütün Gürcüstanda nümunəvi üzüm bağı sayılırdı. Bacarıqsız "baş aqranomun" və səriştəsiz sovxoz direktorunun əmri ilə bu bağlar bir günün içində doğrandı. Sonralar bu torpaq sahələrinin bir hektarı hər il 500 (beş yüz ) Amerika dolları ilə icarəyə verilib satılırdı. Baş verən haqsızlıqları ürək ağrısı ilə belə qələmə aldım:

***Əlinlə saldığın üzüm bağları,***
***Bir gündə doğrandı, ay Nəsib baba!***
***85 hektarlıq şümşəd zoğlardan,***
***Yüz kündə doyrandı, ay Nəsib baba!***

***Sıraya düzüldü əli baltalar,***
***Qarğalar, bayquşlar, alabaxtalar,***
***Elə bil bağları vurdu şaxtalar,***
***Ürəyim odlandı, ay Nəsib baba!***

***Üzümün qədrini nə bilir onlar,***
***Arvadı boşayıb torpaq alanlar.***
***Ər kişilər köçdü , yurdda qalanlar-***
***Xəmir yoğurandı, ay Nəsib baba!***

***Bircə meynə tingi əkməyən əyyaş,***
***Hamıdan qabaqda getdi o oğraş.***
***Vallah, gözlərimdən axdı qanlı yaş,***
***Qəlbim odsuz yandı, ay Nəsib baba!***

Nəsib Nəbi oğlu 1944-cü ildə, 72 yaşında haqqa qovuşsa da, indi də Qoçuluların ürəyində "Nəsib baba" kimi yaşayır. Nə qədər bu dünyada günəşli Gürcüstanımız, nə qədər Qoçulu və qoçulularımız olacaq Nəsib baba da bir o qədər yaşayacaq.

**Dunyamalı Kərəm**

Ümid
“იმედი” – დამოუკიდებელი გაზეთი Müstəqil qəzet

# Bu rəsm 44,4 milyon dollara satıldı

***Ötən gün Nyu York auksionunda 44.4 milyon dollara rəsm əsəri satılıb.***



«Datura» («Ağ çiçək №1″) adlı rəsm əsəri amerikalı qadın rəssam **Corciya O'kifinə** məxsusdur. Beləliklə, bu əsər qadın tərəfindən yaradılmış ən bahalı sənət nümunəsi olub.

Rəsm əsəri hərraca Nyu-Meksiko ştatının Santa-Fe şəhərində yerləşən, uzun müddət rəssamın yaşadığı və hazırda onun adını daşıyan Corciya O'kif muzeyi tərəfindən çıxarılıb. Sotheby's 1932-ci ildə çəkilən rəsm əsərinin 15 milyondan aşağı qiymətə satılacağını güman etsə də, nəticə gözlənilənləri üç dəfə üstələyib.

Corciya O'kif (1887-1986) ilk növbədə çiçəklərin əks olunduğu əsərləri ilə məşhurdur. Maraqlıdır ki, rəssam çiçəklərdən zəhləsi getdiyini, lakin onları modellərdən daha ucuz başa gəldiyi və tərpənmədiyi üçün çəkdiyini etiraf etmişdi.

## Darçından istifadə etməyiniz üçün 8 səbəb

Kofe, alma piroqu, isti şokoladda istifadə etdiyimiz darçından daha geniş istifadə sağlamlığınız üçün çox faydalıdır. Darçın kalsiumla, dəmir, manqan, güclü təsirli antioksidantlarla zəngindir.Onun möcüzəvi xüsusiyyətləri aşağıdakılardır:

1. Darçın beyinin funksiyasını gücləndirir. Darçını qoxulamaq idrak prosesini sürətləndirir, yaddaşı, diqqəti gücləndirməyə kömək edir. Gündəlik az da olsa darçın istifadə etmək depressiya və əsəb xəstəliklərinə yaxşı təsir göstərir və başağrılarının qarşısını alır.



2. Ürəyinizə xeyirlidir. Yeməklərə darçın və sarıkök qatmaq yağlı yeməklərdə yağı parçalayır və onun mənfi təsirini azaldır.
3. Darçın kilo atmağa kömək edir.
4. Darçın bağırsaqlara xeyirlidir. Mədə pozğunluğu, mədədə turşuluq zamanı ondan istifadə etmək olar.
5. Darçın xərçəngdən qoruyur. Ondan mütəmadi istifadə xərçəng hüceyrələrinin yayılmasının və böyüməsinin qarşısını alır.
6. Darçın xoş əhval-ruhiyyədə qalmağa kömək edir.
7. Darçın damaq sağlamlığına yaxşı təsir göstərir. Ağız yaxalayıcılar və saqqızlarda istifadə olunan bu bitki antibakterial təsiri sayəsində damaq və dişləri zədələnmədən qoruyur və həmçinin nəfəsi təravətləndirir.
8. Darçın dəriyə müsbət təsir göstərir. Antibakterial təsiri nəticəsində darçın dəridə qaşınma və qırmızılığı aradan qaldırır, sızanaqlara qarşı mübarizədə təsirlidir.

## Bu ilin "Dünya gözəli" seçildi



Londonda 64-cü dəfədir ki, keçirilən "Miss World" ("Dünya gözəli") gözəllik müsabiqəsi baş tutub.

Bu ilki qalib yarışmaya Cənubi Afrika Respublikasından qatılan 22 yaşlı Rolen Ştraus olub. Rolenə tacı eks-dünya gözəli, filippinli Meqan Yanq təqdim edib.

ABŞ, Böyük Britaniya, Avstraliya və Macarıstan nümayəndələri də finala çıxıblar.

Üçüncü yeri 22 yaşlı amerikalı Elizabet Safrit , ikinci yeri isə 23 yaşlı macar Yedina Kulşar tutub.

## Hər şey Allahdandır, qadın da

***İtalyan atalar sözləri***



İtaliya – təkcə Avropa sivilizasiyasının beşiyi, İntibah dövrü dahilərinin vətəni və çəkməyə bənzər ölkə deyil, həm də müdrik fikirlər anbarıdır. İtalyan atalar sözlərini təqdim edirik:

Oyun qurtaranda şah da, piyada da eyni qutuya qoyulur.

İntiqam – soyuq verilən yeməkdir.

Qoyunla yüz il yaşamaqdansa, şirlə bir gün yaşamaq yaxşıdır.

Qonaq balıq kimidir, 3 gündən sonra iylənməyə başlayır.

Ay Allah, sən məni dostlarımdan qoru, düşmənlərimlə özüm baş çıxararam.

Özünü tanıyan dünyanı da tanıyar.

Sən istəyirsənsə, mümkünsüz heç nə yoxdur.

Yalan danışırsansa, lakonik ol.

## İlin minik avtomobili bəlli oldu

Caspian Motor Show 2014 avtomobil sərgisində Nissan Altima bir daha " sahib ola biləcəyəniz ən yaxşı avtomobil"-dən biri olduğunu sübut etdi, belə ki, Nissan Altima İlin Minik Avtomobili nominasiyasında "Qızıl çarx" mükafatına layiq görülüb.




"Altima" avtomobili yüksək yanacaq qənaətinə, " sürət və effektliyin" vəhdəti olan transmissiyasına, asan istifadə olunan texnologiyası və zəriflikl ə öhdəliyin ümumi balansına görə bu mükafatı qazanıb.

## Məktəb şagirdi 72 milyon dollar qazandı



Nyu-Yorkun Kvins rayonundan olan yuxarı sinif şagirdi 17 yaşlı ***Məhəmməd İslam*** birjada 72 milyon dollar pul qazanıb. Şagird tənəffüs zamanı distant şəkildə səhm ticarəti ilə məşğul olaraq, bu səviyyəyə gəlib çıxıb. Məhəmməd və daha 2 yoldaşı gələn ilin iyun ayında öz fondlarını açmaq niyyətindədirlər. Yuxarı sinif şagirdlərinin yaratdığı şirkət onlara broker lisenziyası almağa imkan verir.

## Avropanın ən yaxşı filmi seçildi



Avropa Kino Akademiyasının təsis etdiyi və "Avropa Oskar"ı da adlandırılan mükafat polyak rejissoru Pavel Pavlikovskinin "İda" filminə verilib.

"İda" həm də "Ən yaxşı rejissor", "Ən yaxşı operator işi", "Ən yaxşı ssenari" nominasiyalarında qalib gəlib. Bundan başqa akademiyanın "Xalqın səsi" xüsusi mükafatını da qazanıb.

Film 60-cı illərdə Anna adlı gənc rahibənin öz əsl adının İda Lebenşteyn olduğunu öyrənməsi və müharibədə öldürülmüş yəhudi valideynlərinin qəbrini axtarmağa başlaması haqdadır.

Avropa Film Mükafatına türk rejissori Nuri Bilge Ceylanın "Qış yuxusu", Lars von Trier-in "Nimfoman qız", rus rejissoru Andrei Zvyagintsev-in "Leviafan" filmləri də iddia edirdi.

Bolnisi Mədəniyyət Mərkəzi
Təsisçi: *Fikrət MƏMMƏDOV*
Məsləhətçi: *Dünyamalı KƏRƏM*
*Gürcüstanın Əməkdar jurnalisti*

Redaktor: *Əlixan YƏHYAOĞLU*
Texniki redaktor: *Anar TAMI*

Redaksiyanın ünvanı:
Bolnisi şəhəri, S.S.Orbeliani k.101
E-mail: umidbmm@inbox.ru
Mob: (+995) 558 33 78 66
(+995) 551 19 21 85

Qeydiyyat şəhadətnaməsi:
22.12.2014. 425359872
Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər
Tiraj:2000